Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 17 (8040) ÇƏRŞƏNBƏ, 23 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İmzamızla sözümüz eynidir

## İLHAM ƏLİYEV Azərbaycanın geostrateji əhəmiyyətinin coğrafi miqyasından daha böyük olduğunu bəyan etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibənin mətnini təqdim edir.

**- Cənab Prezident, Sizi Davosda görmək bizdə böyük məmnunluq hissi doğurur.**

- Çox sağ olun, sizi görməyə şadam.

**- Ölkənizdəki neft və qaz sektorunun inkişafı iqtisadiyyatınızın yüksək səviyyəyə qaldırılmasına imkan verib və bu, Sizin baxışınız nəticəsində mümkün olub. Sualım belədir ki, bu, dayanıqlı olacaqmı?**

- Siz doğru qeyd etdiniz, neft və qaz iqtisadiyyatımızın aparıcı qüvvəsidir. Biz böyük enerji şirkətlərini Azərbaycana sərmayə yatırmaq üçün cəlb etdiyimizə görə çox böyük tərəqqiyə nail olmuşuq. Lakin indi, əlbəttə ki, bizim əsas vəzifəmiz iqtisadiyyatımızı şaxələndirməkdir və neft-qazdan asılılığımızı azaltmaqdır. Bu, asan olmayacaq, çünki biz indi neft və qaz ehtiyatlarımızın işlənilməsinin aktiv inkişaf fazasındayıq. Lakin, eyni zamanda, son illərdə biz əsasən infrastruktura sərmayə yatırmışıq. Biz çoxlu sərmayə cəlb etdik, son 15 ildə təqribən 250 milyard dollar həcmində. Dünya Bankının "Doing Business" reytinqində biz 25-ci yerdəyik. Buna görə düşünürəm ki, neft-qaz sektorundan başqa digər sektorlara sərmayə yatırmaq üçün investorları cəlb etmək çətin olmayacaq.

**- Cənab Prezident, başa düşürəm ki, infrastruktur sahəsinin sizin ölkədə vacib potensialı var. Məsələn, Siz bir neçə vacib infrastruktur layihələri üzərində işləyə bilərsiniz. Yəni, ölkənizdə həyata keçirilən layihələri, eyni zamanda, digər Xəzəryanı ölkələr arasında və hətta bu regiondan kənarda olan layihələri nəzərdə tuturam. Bunun inkişaf üçün qısamüddətli və uzunmüddətli təsirləri nədir?**

- Siz tamamilə düzgün deyirsiniz. Biz Azərbaycana və onun sərhədlərindən kənara sərmayə yatırmışıq. İlkin olaraq prioritet, əlbəttə ki, müasir infrastrukturun yaradılması idi. Bu infrastruktur da öz növbəsində, investorlar, biznes dairələri üçün çoxlu potensial və insanlarımız üçün rahatlıq yaradacaq. Buna görə biz əsasən elektrik enerjisinin istehsalına sərmayə yatırdıq və elektrik enerjisi idxal edən ölkədən elektrik enerjisi ixrac edən ölkəyə çevrildik və bundan çoxlu qazanc götürmüşük.

*Ardı 4-cü səh.*




## İlham ƏLİYEV: "Biz qitələri, ölkələri birləşdiririk və proqnozlaşdırıla bilən gələcək yaradırıq"

Yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sessiyada iştirak ediblər.

**Sessiyanın aparıcısı: Gəlin Sizdən başlayaq, cənab Prezident. "Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycan kimi qonşu ölkə üçün nə deməkdir? Mən bilirəm ki, Siz ölkənizin iqtisadi fəaliyyətini təkcə neft-qaz sahəsinə yox, eyni zamanda, infrastrukturun qurulmasına yönəltmisiniz.**

*Ardı 2-ci səh.*

# ABŞ "demokratiyası"nın qara üzü

## Dünyada insan hüquqlarının, demokratiyanın ən çox pozulduğu ölkənin mediası da qərəz və böhtanın ruporuna çevrilib



**Azərbaycanda demokratik dəyərlərin sözdə deyil, real əməldə öz yerini tapmasını sübut etməyə ehtiyac yoxdur. Ötüb keçən illərin reallıqları təsdiq edir ki, ölkəmiz demokratik proseslərdən kənarda deyil. Hər bir vətəndaşın hüquqları, azadlığı qanunlarla tam təmin olunur və demokratik inkişafın mütərəqqi cəhətləri Azərbaycan gerçəkliyində özünün tam əksini tapır.**

Lakin başqa bir reallıq da ondan ibarətdir ki, Azərbaycanın inkişafı, yüksəlişi, qüdrətlənməsi müəyyən Qərb dairələri tərəfindən hər addımda qısqanclıqla qarşılanır. Yanvarın 21-də "Washington Post" qəzetində dərc olunan bir məqalə də antiazərbaycançı dairələrin ölkəmizlə bağlı çirkin planlarını davam etdirdiklərini göstərir.

Əvvəlcə bir məqamı xatırladaq ki, ABŞ mətbuatının qərəzli və böhtançı tribunaya çevrildiyini bu ölkənin sadə vətəndaşından prezidentinə qədər hər kəs etiraf edir. Hətta Prezident Donald Tramp etiraf edir ki, dünyada saxta informasiyalar yaymaqda ABŞ mediası liderdir. D.Tramp öz vətəndaşlarına və dünya əhalisinə dönə-dönə müraciət edərək onları ABŞ mediasına inanmamağa çağırıb. Bu baxımdan öz ölkəsinin vətəndaşları və prezidenti tərəfindən real faktlarla saxtakarlıqda ittiham olunan, böhtançı və qərəzli mövqeyi ifşa edilən bir mediaya diqqət yetirmək bəlkə də yersiz görünə bilər. Bununla belə, bəzi məsələlərə münasibət bildirməyə ehtiyac duyduq.

Azərbaycanda "siyasi məhbus"ların mövcudluğundan bəhs edən məqalə antiazərbaycançı dairələrin və onların sifarişlərini yerinə yetirən sapı özümüzdən olan baltaların Mehman Hüseynovla bağlı başlatdıqları şounun tərkib hissəsidir.

*Ardı 5-ci səh.*

# "Davosa səfərimin əsas məqsədi Prezident İlham Əliyev ilə görüşmək idi"

## "Visa" şirkətinin prezidenti Rayan Maklnerni Azərbaycanda tətbiq edilən vergi güzəştlərinin və digər təşəbbüslərin çox faydalı olacağını söylədi



Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Visa" şirkətinin prezidenti Rayan Maklnerni ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Rayan Maklnerni bu il Davosa səfərlərinin əsas məqsədinin Prezident İlham Əliyev ilə görüşmək olduğunu vurğuladı. O, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda rəqəmsal ödənişlərin inkişafında mühüm irəliləyişlərin baş verdiyini və bu sahədə müxtəlif layihələrin reallaşdırılmasında "Visa" şirkətinin ölkənin müvafiq qurumları ilə sıx əməkdaşlıq etdiyini bildirdi. Rayan Maklnerni nağdsız ödənişlərin inkişafı üçün Azərbaycanda tətbiq edilən vergi güzəştlərinin və digər təşəbbüslərin çox faydalı olacağını qeyd etdi, bunun başqa ölkələr üçün də nümunə olduğunu dedi.

Hazırda Azərbaycanda elektron ödənişlərin aparılmasında "Visa" brendli kartlardan geniş istifadə edildiyini deyən Rayan Maklnerni şirkətin ölkədə fəaliyyətinin genişləndirilməsində maraqlı olduğunu, bir çox sahələrdə, o cümlədən ictimai nəqliyyatda da nağdsız ödənişlərin geniş tətbiqinə dəstək göstərməyə hazır olduqlarını vurğuladı.

Prezident İlham Əliyev elektron ödənişlərin inkişafının ölkə üçün əhəmiyyətli məsələlərdən biri olduğunu və bu məqsədlə geniş islahatların aparıldığını, bu islahatların artıq nəticələr verdiyini, o cümlədən bunun beynəlxalq reytinqlərdə, məsələn, "Doing Business 2019" hesabatında əks olunduğunu, Azərbaycanın bu hesabatda 32 pillə irəliləyərək 57-ci yerdən 25-ci yerə yüksəldiyini bildirdi. Dövlətimizin başçısı əməkdaşlıq səylərinin daha da gücləndirilməsinin önəmini ifadə etdi.

# Dünya Bankından İlham Əliyevə tam dəstək

## Azərbaycanda reallaşdırılan iqtisadi siyasəti yüksək qiymətləndirən qurumun baş icraçı direktoru Kristalina Georgiyeva Prezidentin həyata keçirdiyi islahatların əhəmiyyətinin daha da artdığını bildirdi

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə xanım Kristalina Georgiyeva Prezident İlham Əliyevi ölkədə aparılan uğurlu islahatlar və Azərbaycanın Dünya Bankının "Doing Business 2019" hesabatında 25-ci yerə yüksəlməsi münasibətilə təbrik etdi. Bildirdi ki, bu, Dünya Bankının "Doing Business" reytinqinin tarixində ən uğurlu və böyük nailiyyətlərdən biridir. O, bu uğurlu islahatların bundan sonra da davam etdirilməsinin önəmini vurğuladı.

Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu bildirən xanım Kristalina Georgiyeva qeyd etdi ki, Prezident İlham Əliyevin həyata keçirdiyi struktur islahatlarının və iqtisadi islahatların əhəmiyyəti son illər dünyada iqtisadi artım sürətinin azalması fonunda daha da artmaqdadır. Bildirdi ki, Dünya Bankı Azərbaycanda reallaşdırılan iqtisadi siyasəti və islahatları dəstəkləyir. Bu islahatlar Azərbaycanda iqtisadiyyatın davamlı inkişafına, yeni iş yerlərinin yaranmasına mühüm dəstək verəcək.

Dünya Bankının baş icraçı direktoru Azərbaycanın Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında, həm də Beynəlxalq Maliyyə Korporasiyasında səhmdarı olduğu institutlarda öz səhmlərinin artırılması məsələsinin nəzərdən keçirilməsini təklif etdi. Bildirdi ki, bu, Azərbaycanın gələcək iqtisadi inkişafına Dünya Bankı tərəfindən əlavə dəstək göstərilməsinə kömək edə bilər.

*Ardı 3-cü səh.*

# BP Azərbaycan ilə əməkdaşlığın inkişafından məmnundur



Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BP qrupunun baş icraçı direktoru Robert Dadli ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə BP şirkəti arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, "Azəri-Çıraq-Günəşli", "Şəfəq", "Asiman", "Abşeron" və digər yataqlar üzrə əməkdaşlıq məsələləri müzakirə edildi.

# Prezident baş nazirlə qeyri-rəsmi görüşdü



Yanvarın 22-də Davos Dünya İqtisadi Forumu çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın qeyri-rəsmi görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqlar prosesinin cari vəziyyəti müzakirə edilib.

# İlham ƏLİYEV: “Biz qitələri, ölkələri birləşdiririk və proqnozlaşdırıla bilən gələcək yaradırıq”





Əvvəli 1-ci səh.

**Prezident İlham ƏLİYEV:** Bəli, siz tamamilə düz deyirsiniz. Müasir infrastrukturun yaradılması bizim hökumətin ən əsas məqsədlərindən biridir. Düşünürəm ki, biz coğrafi vəziyyətimizdən faydalanaraq əsasən infrastruktura, yəni, daxili infrastruktura və Azərbaycanın beynəlxalq hablardan birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmaqla doğru iş görmüşük. Biz yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırırıq. Biz, həmçinin nəqliyyat infrastrukturuna da sərmayə yatırmışıq. Bu da bizə yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcək.

Azərbaycan “Şərq-Qərb nəqliyyat dəhlizi” təşəbbüsünün fəal üzvüdür. Biz əlbəttə ki, Çin hökumətinin “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyirik. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Biz artıq bunu müşahidə edirik. Azərbaycan “Şərq-Qərb” və “Şimal-Cənub nəqliyyat dəhlizləri”nin üzvü olan yeganə ölkədir. Bunun üçün dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası yollarımızdan istifadə etmək istəyənlərə yaxşı şərait yaradır. Biz yaxşı tarif siyasətini yaratmaq üçün vəsait sərf edirik. Yükdaşımaların həcmi də artır. Yalnız “Şimal-Cənub dəhlizi” vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb.

**Aparıcı: Mən etiraf etməliyəm ki, cənab Prezidentdən müsahibə almışam və o, bütün rəqəmləri xatırlayır. Biz hazırda bu rəqəmlərin yalnız kiçik hissəsini təhlil edirik.**

**Cənab Prezident, gəlin borcdan danışaq. Çünki Siz bu məsələ ilə dəfələrlə üzləşmisiniz. Əgər düz xatırlayıramsa, on il ərzində Siz borc barədə bir çox yerlərdən olan bir sıra insanların suallarını cavablandırmalı olmusunuz. Bu barədə nə deyə bilərsiniz?**

**Prezident İlham ƏLİYEV:** İnfrastruktura gəlincə, biz onu əsasən dövlət büdcəsindən maliyyəşdirmişik. Hesab edirəm ki, infrastruktura investisiya qoymaq üçün neft və qaz satışından əldə etdiyimiz gəlirləri düzgün istiqamətə yönəltməyə müvəffəq olmuşuq və indi biz bununla fərəhlənə bilərik. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən yolların keyfiyyətinə gəlincə, Azərbaycan dünyada 34-cü yerdə qərarlaşıb. Bunu biz neft və qaz satışlarından əldə etdiyimiz vəsaitlə etdik. Sonra əlbəttə ki, bu, biznes mühitinin yaradılmasına gətirib çıxardı. Çünki sizin müasir infrastrukturunuz, qazlaşdırmanız, elektrik enerjiniz, yaxşı yollarınız və magistrallarınız olduqda onda bizneslər üçün də investisiya yatırmaq daha asan olacaq. Biz bu istiqamət üzrə də işlər görmüşük. Dünya Bankının ən son “Doing Business” hesabatına əsasən Azərbaycan dünya üzrə 25-ci pillədədir və mövqeyimizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında on ən çox islahatçı ölkələr arasındayıq.

**Aparıcı: İcazənizlə, mən bilirəm ki, Siz gözəl nəticələri qeyd edə bilərsiniz. Lakin bu nəticələrə aparan proses heç də həmişə asan olmur. Buna görə mən Sizdən bu borc məsələsini soruşuram. Çünki Siz bir çoxları kimi, infrastrukturun qurulması nəticəsində borcun yığılmasına görə tənqid olunmusunuz. Buna görə də Sizin fikrinizcə, borca gətirib çıxaran investisiyaları necə görürsünüz və bu məsələ öz həllini necə tapa bilər?**



**Prezident İlham ƏLİYEV:** Bizim uzun illərdir ki, strategiyamız qazandığımızdan daha az xərcləməkdən ibarət olub. Yaxşı olardı ki, bu fərq daha da böyük olsun. Buna görə biz üzərimizə borc yığmamışıq. Daxili borca gəlincə, o, çox aşağıdır. Bizim xarici borcumuz ümumi daxili məhsulun yalnız 19 faizinə bərabərdir. Bizim bunu 10 faizə endirmək üçün strategiyamız var. Buna görə də bayaq da qeyd etdiyim kimi, Azərbaycanda həyata keçirdiyimiz bütün infrastruktur layihələri, yəni, qeyd etdiyim kimi, ölkələri bir-birinə birləşdirən layihələr borcsuz həyata keçirilmişdir. Biz iyirmi il bundan əvvəl - o qədər inkişaf etmədiyimiz və kasıb olduğumuz zaman borc götürmüşdük və borc götürmək məcburiyyətində idik. Bizə borc verən həmin maliyyə institutlarına minnətdarıq. İndi biz borc veririk. İndi Azərbaycanın təkcə başqa ölkələrə investisiya yatırmaq yox, həm də infrastruktura, real iqtisadiyyata sərmayə yatırmaq strategiyası var. Eyni zamanda, biz digər ölkələrdə həyata keçirilən infrastruktur layihələri üçün borc pul veririk. Bizim borcumuzun infrastruktura heç bir aidiyyəti yoxdur. Lakin biz infrastruktura investisiya yatıranda dərhal vəsaitimizin geri qaytarılmasını gözləmirdik. Biz başa düşürük ki, geri qayıdacaq gəlir birbaşa olmayacaq. Siz yol tikdiyinizə görə pul qazanmayacaqsınız. Lakin siz mallarını bazara gətirmək üçün bu yoldan istifadə edənlər tərəfindən ödənilən vergilərdən qazanacaqsınız. Ya da bizim ərazidən tranzit kimi Şərqdən Qərbə və əks istiqamətdə istifadə edənlər tərəfindən ödənilən vəsaitdən qazanacağıq. Bu da sərmayədən geri qayıdan bir gəlirdir. Lakin hesab edirəm ki, daxildə infrastruktura və regional əməkdaşlığa sərf etdiyimiz vəsait ola bilsin on ildən sonra geri qayıtsın.

**Aparıcı: Lakin heç də hər bir ölkə Azərbaycan kimi xoşbəxt ölkə deyil. Sizin çox zəngin neft və qaz ehtiyatlarınız var. Mən bunu bir gün içində təəccüb doğuran bir fakt kimi kəşf etdim. İnfrastrukturu quran və bu platformada iştirak edən digər ölkələr üçün bu, bir narahatlıqdırmı? Bunu tarazlaşdırmağın yolu nədən ibarətdir?**

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, bu, əlbəttə, narahatlıqdır. Bizim sərmayə yatırmaq üçün pulumuz olmasaydı, xarici investorlardan pul almaq məcburiyyətində olardıq. Mən sizə bir il yarım bundan əvvəl tamamladığımız dəmir yolu layihəsi timsalında bir misal çəkə bilərəm. Söhbət Şərqlə Qərbi birləşdirən Azərbaycan və Türkiyə arasında dəmir yolu bağlantısından gedir. Biz bir neçə illərdir xarici mənbələrdən maliyyələşməni axtarırdıq.

**Aparıcı: Bu, nə zaman idi?**

**Prezident İlham ƏLİYEV:** Bu, 2000-ci illərin əvvəlləri, 2004-2005-ci illər idi. Lakin bizim müraciətlərimizə rədd cavabı verilmişdi. Çünki sizin qeyd etdiyiniz kimi, investisiyalar heç ortamüddətli perspektivdə belə geri qayıtmayacaqdı. Əlbəttə ki, maliyyə ehtiyatları olmayan ölkələr üçün çox çətin olur. Maliyyə ehtiyatları olmayanların daha çox təxirəsalınmaz problemləri var. Məsələn, işsizlik, gəlir əldə etmək üçün iqtisadiyyatın real sektoruna investisiya yatırmaq və bu ölkələr üçün infrastruktur layihələri prioritet deyil. Buna görə düşünürəm ki, maliyyə institutları bu məsələyə daha çox diqqət ayırmalıdırlar. Xüsusilə aparıcı beynəlxalq maliyyə institutlarını nəzərdə tuturam. Onlar on il ərzində iş yerlərinin açılmasına imkanlar yaradacaq ölkələrə infrastruktur sahəsinə investisiya yatırmağa kömək etməlidirlər.

Sonra dövlətimizin başçısı auditoriyanın suallarını cavablandırdı.

Kornel Universitetindən **Lurdis Kardsanella: “Bir kəmər, bir yol” təşəbbüsünün üzvü olan ölkələrin investisiyaları son beş ildə əlli faiz artmışdı. Çin şirkətlərinin ABŞ və Avropada üzləşdiyi məhdudiyyətləri nəzərə alsaq, gələcəkdə bu kimi artım müşahidə olunacaqmı?**

**Çinin və dünyanın ən böyük enerji şirkətinin nümayəndəsi: Sualım Zati-aliləri Prezident Əliyevədir. Mən bilirəm ki, Siz nəqliyyat sahəsində infrastruktura diqqət yetirirsiniz. Lakin elektrik enerjisinin təchizatı da daxil olmaqla enerji infrastrukturu barədə nə deyə bilərsiniz? Bizim şirkətlər üçün bu sahədə potensial imkanlar varmı? Çox sağ olun.**

İsveçrə parlamentinin nümayəndəsi **Fred Bigli: “Bir kəmər, bir yol” təşəbbüsü hansı dərəcədə infrastruktur layihəsidir və hansı dərəcədə xarici siyasi münasibətlərin birləşməsi layihəsidir?**

Tailandda fəaliyyət göstərən “Omata Group” şirkətinin əməkdaşı **Lina: Mənim sualım belədir ki, biz Çin və ABŞ gərginliyi haqqında çox danışdıq. Bu gərginlik “Bir kəmər, bir yol” təşəbbüsünü ləngidəcək, yoxsa sürətləndirəcək? Sağ olun.**

**Prezident İlham ƏLİYEV:** Biz elektrik enerji generasiyasına çoxlu sərmayə yatırmışıq. İndi biz defisiti tamamilə azaltmışıq, elektrik enerjisinin xalis ixracatçısına çevrilmişik və 10 milyonlarla dollar qazanmışıq. Biz sərmayələrə açığıq. Biz, həmçinin şirkətləri podratçı olmağa dəvət edirik. Bu il biz yeni elektrik stansiyasını istismara verəcəyik və onun gücü 400 meqavat olacaq. Əlbəttə ki, biz indi səmərəlilik, itkilərin azaldılması üzərində işləyirik. Praktik nöqteyi-nəzərdən siz investor, podratçı qismində - istənilən qismdə ölkəmizə gəlsəniz mən çox şad olardım.

İsveçrə parlamentinin nümayəndəsinin verdiyi suala da toxunmaq istəyirəm. Mən tamamilə əminəm ki, ölkələri birləşdirən istənilən nəqliyyat layihəsinin geosiyasi əsası var. Bu layihələr geosiyasi vəziyyətə, sabitliyə, proqnozlaşdırmaya müsbət təsir göstərir. Çünki bu layihələr qarşılıqlı asılılıq yaradır. Biz qonşularımız olmadan tranzit ölkə ola bilmərik. Bizim qonşularımız onların qonşuları olmadan tranzit ölkələr ola bilməzlər. Buna görə bu, ölkələr zənciridir və bayaq dediyim kimi, biz Şərqdən Qərbə və Şimaldan Cənuba gedən yol üzərindəyik. Beləliklə, biz qitələri, ölkələri birləşdiririk və daha proqnozlaşdırıla bilən gələcək yaradırıq.

* * *

Sessiyanın digər iştirakçıları - Ümumçin Sənaye və Ticarət Federasiyasının sədr müavini Vanq Yonq-qinq, “China Poly Group” Korporasiyasının sədri Su Niansha və Sinqapurun maliyyə naziri Henq Svi Keat mövzu ilə bağlı müzakirələrdə iştirak etdilər.

# Hər bir dövlətin inkişafı üçün lazım olan üç əsas istiqamət Azərbaycanda var

## “CISCO” şirkətinin icraçı vitse-prezidenti Gerri Elliott bunu belə əsaslandırır: Azərbaycanda islahatları aparan bacarıqlı lider və konkret inkişaf planları mövcuddur, dövlətin inkişafını təmin edəcək hədəflərə çatmaq üçün məsul qurumlar müəyyənləşdirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda “CISCO” şirkətinin icraçı vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Gerri Elliott Azərbaycanın müxtəlif dövlət qurumları ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan regionda şirkətin əməkdaşlıqda maraqlı olduğu ən mühüm dövlətlərdən biridir. Gerri Elliott “CISCO” şirkətinin layihələrinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, hər bir dövlətin inkişafı üçün lazım olan üç əsas istiqaməti Azərbaycanda müşahidə etdiklərini vurğuladı. Bu baxımdan Azərbaycanda islahatları aparan bacarıqlı liderin olmasının, konkret inkişaf planlarının mövcudluğunun, bu planların reallaşdırılmasını və dövlətin inkişafını təmin edəcək hədəflərə çatmaq üçün məsul qurumların müəyyənləşdirilməsinin ölkənin tərəqqisində əsas amillər olduğunu qeyd etdi.



Xanım Gerri Elliott Azərbaycan hökuməti, xüsusilə Ədliyyə Nazirliyi ilə məhkəmələrin, cəzaçəkmə müəssisələrinin inteqrasiyası, bu sahədə elektron xidmətlərin səviyyəsinin daha da artırılması istiqamətlərində sıx əməkdaşlıq etdiklərini vurğuladı. O, “CISCO”nun Azərbaycanın iqtisadi inkişafın müxtəlif istiqamətləri üzrə həyata keçirdiyi siyasətə dəstək verməyə hazır olduğunu ifadə etdi və Azərbaycan hökuməti ilə sıx əməkdaşlığa görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev “CISCO” şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu vurğuladı. Dövlətimizin başçısı şirkətin Azərbaycanın aidiyyəti qurumları ilə məhsuldar əməkdaşlığından razılığını bildirdi. Prezident İlham Əliyev bu əməkdaşlığın Azərbaycanın müəyyənləşdirdiyi proqram və planların həyata keçirilməsində, şəffaflığın artırılmasında və digər elektron xidmətlərin inkişafında əhəmiyyətini qeyd etdi.

# Azərbaycan iqtisadiyyatındakı mövcud sabitlik və maliyyə dayanıqlılığının güclənməsi rəqəmsal iqtisadiyyatın inkişafı üçün geniş zəmin yaradır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda “SAP SE” şirkətinin baş icraçı direktoru Bill MakDermot ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Bill MakDermot müəllifi olduğu kitabı dövlətimizin başçısına təqdim etdi.

Söhbət zamanı Bill MakDermot Azərbaycan ilə əməkdaşlıqdan məmnunluğunu vurğuladı və son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların və ölkəmizin inkişaf proqramlarının onlarda böyük maraq oyatdığını bildirdi. Şirkətin artıq Bakıda ofis açdığını deyən Bill MakDermot Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin reallaşdırılmasında və rəqəmsal iqtisadiyyatın formalaşmasında “SAP SE” şirkətinin dəstək verməyə hazır olduğunu ifadə etdi. Qeyd etdi ki, şirkət həm dövlət sektorunda, həm də özəl sektorda rəqəmsal iqtisadiyyatın, ümumiyyətlə, rəqəmsallaşmanın inkişafına töhfə verə bilər. Azərbaycan dövlətinin başçısının həyata keçirdiyi iqtisadi siyasət onlarda bu inamı yaradır.



Bill MakDermot vurğuladı ki, Azərbaycan iqtisadiyyatındakı mövcud sabitlik və ölkənin maliyyə dayanıqlılığının güclənməsi rəqəmsal iqtisadiyyatın inkişafı üçün geniş zəmin yaradır. Eyni zamanda, rəqəmsal iqtisadiyyat böyük sürətlə iş yerlərinin artmasına imkan verir. Şirkətin baş icraçı direktoru xüsusi vurğuladı ki, rəqəmsal iqtisadiyyatın inkişafı gender bərabərliyinin təmin olunmasına da töhfə verə bilər.

Prezident İlham Əliyev “SAP SE” şirkəti ilə əməkdaşlıqdan məmnunluğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, şirkətin Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlığı ölkəmizdə iqtisadiyyatın inkişafına, şəffaflığın artmasına, yeni iş yerlərinin yaradılmasına töhfə verib. Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin önəmini vurğuladı.

# Azərbaycan ilə Gürcüstan əlaqələri bundan sonra daha da genişlənəcək

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri Mamuka Baxtadzenin görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimizin həyata keçirdiyi mühüm qlobal layihələrin əhəmiyyəti qeyd edildi, əməkdaşlığın bundan sonra da genişləncəyinə əminlik ifadə olundu.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# “LUKoil” şirkəti ilə əməkdaşlığın perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Rusiyanın “LUKoil” şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə “LUKoil” şirkətinin Azərbaycanda həyata keçirdiyi layihələr və onların icrası ilə bağlı məsələlərdən, əməkdaşlığın perspektivlərindən danışılıb.



# “Total” şirkəti “Abşeron” layihəsini uğurla reallaşdırır

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransanın “Total” şirkətinin baş icraçı direktoru Patrik Puyannenin görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə “Total” şirkətinin Azərbaycanda reallaşdırdığı layihələr, o cümlədən “Abşeron” layihəsinin uğurla həyata keçirilməsi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



# “Microsoft” Azərbaycanda həyata keçirilən layihələrə dəstəyini davam etdirəcək

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda “Microsoft” şirkətinin vitse-prezidenti, Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Mişel Van Der Bel ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Mişel Van Der Bel dünyanın aparıcı texnoloji şirkəti olan “Microsoft”un Azərbaycanda həyata keçirilən layihələrə dəstəyinin bundan sonra da davam etdirəcəyini vurğuladı. Bildirdi ki, dünya iqtisadiyyatının və sosial həyatın inkişafı nəticəsində müasir dövrdə süni intellekt məsələləri ön plana keçməkdədir. Yaxın onilliklərdə süni intellekt artıq bir çox peşələri əvəz edəcək. Mişel Van Der Bel hökumətlərin və dövlətlərin süni intellekt erasına hazır olmalarının vacibliyini vurğuladı. Diqqətə çatdırdı ki, bu prosesdə hökumət nümayəndələri, elmi dairələr və biznes qurumları bir araya gəlməli, süni intellekt dövrünə transformasiya üçün lazım olan proqramlar və digər layihələr həyata keçirilməklə süni intellektə əsaslanan peşələr üzrə çalışacaq insanlar və müvafiq mühit hazırlanmalıdır. Bu da bütövlükdə informasiya texnologiyalarının inkişafı ilə mümkündür.



Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən islahatlar, o cümlədən informasiya texnologiyalarının inkişafına və dövlət xidmətlərinin genişləndirilməsinə göstərilən dəstək haqqında məlumat verdi. Bildirdi ki, Azərbaycanda qəbul olunmuş dövlət proqramlarında, iqtisadi və sosial həyatın bütün sahələrində informasiya texnologiyalarının tətbiqi genişlənməkdədir. İnformasiya texnologiyalarının tətbiqi həm də yeni iş yerlərinin yaranması ilə müşayiət olunur. Bu da Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Süni intellekt dövrünə hazırlıq üçün Azərbaycan hökuməti də müvafiq tədbirlər həyata keçirir.

Söhbət zamanı bildirildi ki, “Microsoft”un Azərbaycandakı təmsilçiləri ilə aidiyyəti hökumət və biznes dairələri birlikdə bu məsələləri müzakirə etməli, layihələr hazırlamalıdır. Hər iki tərəfdən belə layihələrin inkişafı üçün müvafiq dəstəyin göstəriləcəyi qeyd olundu.

# Paytaxtın işıqlandırma sistemi ən modern səviyyədə qurulacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 22-də Davosda “Signify” şirkətinin (keçmiş “Philips Lightning”) baş icraçı direktoru Erik Rondolat ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Erik Rondolat təmsil etdiyi qurumun şəhər işıqlandırması sahəsində dünyanın aparıcı şirkətlərindən biri olduğunu vurğuladı və hazırda Azərbaycanın aidiyyəti qurumları ilə birlikdə paytaxtın işıqlandırılmasına dair layihə üzərində iş aparıldığını qeyd etdi. O, layihənin pilot variantının yaxın bir neçə ay ərzində başa çatdırılacağı barədə dövlətimizin başçısına məlumat verdi.

Erik Rondolat bu layihə üzrə Azərbaycan tərəfi ilə birlikdə görülən işlərdən məmnunluğunu bildirdi. O, Bakı şəhərinin bütövlükdə işıqlandırma sisteminin idarə edilməsi layihəsinin “Signify” şirkəti tərəfindən hazırlanaraq təqdim olunmasını təklif etdi.

Prezident İlham Əliyev “Signify” şirkətinin nümayəndələrinin Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdi.



Dövlətimizin başçısı Bakı şəhərinin işıqlandırılması sisteminin idarə edilməsinin təkmilləşdirilməsi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə müzakirələrin aparılmasının və müvafiq layihələrin hazırlanmasının önəmini vurğuladı.

# Prezident İlham ƏLİYEV: “Azərbaycan öz daxili imkanlarına arxalanaraq irəliyə gedir”

Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, öz daxili imkanlarına arxalanaraq irəliyə gedir. Biz heç bir yerdən yardım almırıq, buna ehtiyac da yoxdur, öz hesabımıza yaşayırıq və dünyada öz hesabına yaşayan ölkələrin sayı o qədər də çox deyil. Ona görə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr etməlidir ki, müstəqil dövlətdə yaşayır. Bu gün bizim taleyimiz öz əlimizdədir. Biz əsrlərboyu başqa dövlətlərin tərkibində yaşamışıq və o dövrü indiki dövrlə müqayisə edəndə görürük ki, ən sürətli inkişaf dövrü müstəqillik dövrüdür. Niyə görə? Çünki taleyimiz öz əlimizdədir.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 75-ci kitabında yer alan bu fikirlər dövlət başçısının Bakının Sabunçu rayonunda 311 saylı tam orta məktəbin yeni binasının açılış mərasimindəki çıxışından götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin iyulundan sentyabr ayınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin Qırğız Respublikasına səfəri zamanı Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında çıxışının, həmin iclasda Ermənistan prezidentinin təxribat xarakterli çıxışına tutarlı və sərt cavabının mətnləri daxil edilib. Nəşrdə dövlət başçısının ölkəmizə rəsmi səfər etmiş Ukrayna və




İran prezidentləri ilə keçirdiyi görüşlər, habelə imzalanan sənədlər, dövlət başçılarının mətbuata birgə bəyanatlarla çıxışları haqqında informasiyalar, Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli zirvə görüşündə çıxışlarının mətnləri, üç ölkənin liderlərinin görüşü barədə materiallar toplanıb.

Çoxcildliyin 75-ci kitabında, həmçinin Prezident İlham Əliyevin Türkiyə, İsveçrə, İtaliya, ABŞ və digər dövlətlərin, Avropa İttifaqının, Avropa Parlamentinin, Qaz İxrac edən Ölkələrin Forumunun, Ümumdünya Yəhudi Konqresinin ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar yer alıb.

Oxucu bu cilddə dövlət başçısının Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında iştirak etmiş idmançılarla görüşündə söylədiyi nitqin, Bakıda keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasının iştirakçılarına müraciətinin, Olimpiadada yarışacaq idmançılarla görüşündə çıxışının mətnləri ilə tanış ola bilər.

Bu kitabda Prezident İlham Əliyevin Qəbələ, İsmayıllı, Masallı, Biləsuvar, Salyan, Xaçmaz, Qusar rayonlarına səfərləri zamanı nəqliyyat və sosial infrastruktur obyektlərinin, yeni məktəb və körpələr evi-uşaq bağçaları binalarının açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallar, Sabirabadda pambıqçılığın inkişafına həsr olunmuş müşavirədə söylədiyi nitqlərin mətnləri, respublika paytaxtındakı orta məktəblərdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığı, yeni tədris korpuslarının açılışında iştirakı haqqında informasiyalar da yer alıb.

Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 75-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Dünya Bankından İlham Əliyevə tam dəstək

*Əvvəli 1-ci səh.*

Xanım Kristalina Georgiyeva Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən yoxsul ölkələrə dəstək proqramına Azərbaycanın donor ölkə kimi qoşulmasını təklif etdi. O, Azərbaycanın iqtisadi transformasiyasının dünyada Çin, Hindistan kimi ölkələrlə yanaşı, ən uğurlu təcrübələrdən biri olduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycan vaxtilə Dünya Bankından yardım alan ölkədən qısa müddətdə donor ölkəyə çevrilib. Bu da son iyirmi ildə Azərbaycanda bütün sahələrdə həyata keçirilən islahatların nəticəsində mümkün olub.

Prezident İlham Əliyev Dünya Bankı ilə əməkdaşlıqdan razılığını ifadə etdi və bankın daim Azərbaycana lazımi dəstək göstərdiyini vurğuladı. Dövlətimizin başçısı Dünya Bankı ilə əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın əldə etdiyi uğurların “Doing Business 2019” hesabatında əks olunmasından məmnunluğunu vurğuladı. Dövlətimizin başçısı bu göstəricilərin daha da yaxşılaşdırılması ilə bağlı xüsusi komissiyanın yaradıldığını dedi. Qeyd etdi ki, “Doing Business 2019” hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması həyata keçirilən çox vacib islahatlar nəticəsində mümkün olub. Dövlətimizin başçısı bunu böyük uğur kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlara verilən yüksək qiymətə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Dünya Bankı tərəfindən Azərbaycanda yeni proqramların həyata keçirilməsi məsələsi müzakirə olundu.

Dövlətimizin başçısı, xüsusilə məhkəmə sahəsində Dünya Bankı ilə birgə həyata keçirilən islahatları yüksək dəyərləndirdi, məhkəmə sistemində innovativ yeniliklərin tətbiqində və bu sistemin avtomatlaşdırılmasında bankın iştirakını və Ədliyyə Nazirliyi tərəfindən bu layihənin reallaşdırılmasındakı uğurları məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev bu uğurlu əməkdaşlığın digər sahələrdə də həyata keçirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, vergi, gömrük, icbari tibbi sığorta sahələrində Dünya Bankı ilə əməkdaşlıq layihələri hazırlanıb. Bu layihələrin uğurla həyata keçirilməsi üçün imkanlar var və hər iki tərəf bu imkanlardan yararlanmalıdır.

Görüşdə qeyd olundu ki, Dünya Bankının bu sahədəki fəaliyyəti Azərbaycandakı özünüməşğulluq layihələrinin genişlənməsində, xüsusilə məcburi köçkünlərin özünüməşğulluğunun artırılmasına dair proqramlarda faydalı ola bilər. Buna görə də hər iki tərəfin aidiyyəti qurumları bu sahədə yeni proqramlar hazırlayıb uğurla həyata keçirə bilər.

Dövlətimizin başçısı Azərbaycanın Dünya Bankı qrupuna daxil olan institutlarda səhmlərinin artırılması və Beynəlxalq İnkişaf Assosiasiyasının həyata keçirdiyi yoxsul ölkələrə yardım proqramlarında donor kimi çıxış etmək məsələləri barədə yekun qərarların qəbul olunması üçün müvafiq arayışların təqdim edilməsinə dair aidiyyəti qurumlara tapşırıqlar verdi.

# Azərbaycan Prezidentinin növbəti humanist addımı

## İstintaq orqanı tərəfindən Mehman Hüseynov barəsindəki cinayət işinin icraatına xitam verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən insan hüquq və azadlıqlarına daim xüsusi önəm verilərək bu istiqamətdə ardıcıl və məqsədyönlü islahatlar aparılır.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, bir qrup hüquq müdafiəçisi, eləcə də Penitensiar Xidmətin 14 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən Mehman Hüseynov onun barəsində aparılan istintaqın obyektivliyinin təmin edilməsi üçün dövlət başçısına müraciət edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər zaman olduğu kimi, ədalət və humanizm prinsiplərini önə çəkərək həmin müraciətləri nəzərə alıb və cinayət işi üzrə araşdırmanın obyektiv aparılması, ədalətli və humanist qərar qəbul olunması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirlərin görülməsini Azərbaycan Respublikasının Baş prokuroruna tövsiyə edib.

Azərbaycan Respublikası Prezidentinin tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən istintaq orqanına M.Hüseynovun barəsində hazırda istintaq olunan cinayət işi üzrə müvafiq tapşırıqlar verilib.

İstintaq orqanı tərəfindən M.Hüseynovun gənc olduğu, cəza çəkdiyi müddətdə intizam məsuliyyətinə cəlb edilmədiyi, islah olunma yoluna qədəm qoyduğu, ailəsində qayğıya ehtiyacı olan yaşlı və tək yaşayan atasının olduğu, törətdiyi cinayətin az ağır cinayətlər kateqoriyasına aid olmaqla, hazırda onun əməlinin və şəxsiyyətinin cəmiyyət üçün təhlükəli olmadığı nəzərə alınaraq M.Hüseynov barəsindəki cinayət işinin icraatına xitam verilib.

M.Hüseynov hazırda hər hansı aclıq aksiyası keçirmir, saxlanma şəraiti normal olmaqla, bununla bağlı şikayət və tələbi yoxdur.

Azərbaycan Respublikasının Baş Prokurorluğu şəxsi mənafe və siyasi məqsədləri naminə M.Hüseynovun ətrafında süni ajiotaj yaratmağa cəhd edənlərə, eyni zamanda M.Hüseynov haqqında həqiqətə uyğun olmayan məlumatlar yayan kütləvi informasiya vasitələrinin redaksiyalarına xəbərdarlıq edərək bildirir ki, ölkəmizdə bərqərar olmuş sabitliyin və əmin-amanlığın pozulmasına yönələn istənilən qanunazidd hərəkətlərin qarşısı qanunun aliliyi təmin edilməklə qətiyyətlə alınacaqdır.

# İmzamızla sözümüz eynidir

## İLHAM ƏLİYEV Azərbaycanın geostrateji əhəmiyyətinin coğrafi miqyasından daha böyük olduğunu bəyan etdi

*Əvvəli 1-ci səh.*





Biz ölkə daxilində qazlaşdırma səviyyəsini 95 faizə qədər artırdıq. Bu da, zənnimcə, çox yaxşı nəticədir. Biz əsasən yol tikintisinə sərmayə yatırmışıq və Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, bizim yollarımız keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

Həmçinin suyun təmizlənməsi və irriqasiya sahəsində çoxlu işlər görülüb. Eyni zamanda, biz nəqliyyat infrastrukturumuza sərmayə yatırdıq ki, bu da bizə çoxlu yükləri cəlb etməyə və bir hab yaratmağa imkan verəcək. Bizim dəmir yollarımız, altı beynəlxalq hava limanımız var, bizə 15 milyon tondan 25 milyon tona qədər yük daşımağa imkan verəcək yeni Ələt Ticarət Limanımız var. Bütün növ gəmiləri istehsal etməyə və Xəzər dənizində yük daşımalarını artırmağa, eyni zamanda, Mərkəzi Asiya və Avropa ölkələri ilə əlaqələrimizi yaratmağa imkan verəcək yeni Gəmiqayırma zavodumuz var. 2017-ci ildə biz Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etdik. Bu dəmir yolu Azərbaycan və Avropa, eləcə də Avropa və Asiya arasında çatışmayan bir bağlantı idi. Hazırda bu dəmir yolu fəaliyyət göstərir və biz yüklərin artımını görürük. İnfrastruktur bizə çoxlu yükləri cəlb etməyə və bir çox ölkələr arasında yeni vacib bağlantı yaratmağa kömək edir.

**- Siz bir Prezident olaraq həmişə demisiniz ki, nailiyyətlərinizlə fəxr edirsiniz. Lakin yenə də belə bir sual yaranır ki, qısamüddətli və uzunmüddətli perspektivdə bu nailiyyətlərdən necə faydalanmaq olar. Qısa müddətdə nəticələri dərhal görmək mümkün deyil. Burada belə bir problem var, elə deyilmi?**

- Bəli, siz tamamilə düz qeyd edirsiniz. Biz infrastruktur layihələrinə vəsaiti dövlət büdcəsindən yatırmışıq və biz anlayırıq ki, bu vəsaitin faydasını bir çox ildən sonra görəcəyik. Lakin əvvəl də qeyd etdiyim kimi, ilkin olaraq biz öz xalqımız üçün çox yaxşı şərait yaratmaq istəyirik. Biz infrastrukturu yeniləmək istəyirdik və biznes dairələrinin faydalana biləcəyi şərait yaratmaq istəyirdik. Eyni zamanda, Azərbaycanda nəqliyyat qovşağının yaradılması bizə Şərqdən Qərbə və Şimaldan Cənuba vacib tranzit ölkə olmaq imkanını verəcək. Bu investisiyalar gələcək üçün yatırılıb. Ola bilsin ki, biz gələcək on il ərzində yatırdığımız vəsaiti geri götürəcəyimizi gözləmirik. Lakin bizim planımız neft və qaz sektorundan başqa yeni imkanlar və gəlir mənbəyi yaratmaqdır. Bir gün neft və qaz tükənəcək, lakin coğrafiyamızı nəzərə alsaq, nəqliyyat infrastrukturu həmişə qalacaq.

**- Cənab Prezident, Sizin bir çox ölkələrdə olan həmkarlarınız uzunmüddətli perspektivə investisiyaların yatırılmasına arzuolunmaz hal kimi baxa bilər. Deyə bilərlər ki, əsas diqqətimizi bu günə, lap uzağı sabaha yönəldirəm. Bir dövlət başçısı kimi Siz bu qısamüddətli və uzunmüddətli faydalar arasında balansın qorunmasına necə baxırsınız?**

- Qısamüddətli faydalara gəldikdə deyə bilərəm ki, bizim nisbətən qısa müddət ərzində xeyli gəlir gətirən çoxlu layihələrimiz var. Biz investisiyaların cəlb edilməsi mexanizmini yaradırıq, eyni zamanda, özəl sektorumuza çox aşağı faiz dərəcəsi ilə kreditlər ayırırıq ki, onlar da tezliklə gəlir gətirəcək sahələrə investisiya yatıra bilsinlər. Məsələn, kənd təsərrüfatı, kiçik və orta biznes kimi sahələr. Biz bunu qısamüddətli gəlir götürmək üçün edirik. Lakin uzunmüddətli investisiyalara gəldikdə əsas məqsəd elə bir infrastrukturun yaradılmasıdır ki, o, uzun zaman ərzində fəaliyyət göstərsin və ölkəni dəyişmiş olsun, dünyanın ölkəyə münasibətini dəyişmiş olsun. Çünki bu infrastruktur layihələri olmadan Azərbaycanın coğrafi mövqeyinin bir o qədər də böyük mənası yoxdur. Biz ölkələri və insanları birləşdirməyə nail olmuşuq. Sizə deyə bilərəm ki, nəqliyyatla bağlı infrastruktur layihələri regionumuzda tamamilə yeni siyasi vəziyyət yaradır. Bir-birindən asılı olan ölkələr; biri tranzit ölkəsindən asılıdır, digəri tranzit ölkəsi olur, əlbəttə ki, onlar arasında daha yaxın münasibətlər yaranır. Onlar faydaları paylaşır, onlar bütün tərəflərin uduzmadığı bir vəziyyət tapa bilir. Təkcə ikitərəfli formatda yox, çoxtərəfli formatda da. Xəzər dənizi vasitəsilə qitələrin birləşdirilməsi, Bakıda dəniz limanının tikintisi, dəmir yolu sistemimizin Avropa sistemi ilə birləşməsi yeni əməkdaşlıq formatını yaradır və qarşılıqlı asılılıq, zənnimcə, fəal siyasi dialoq üçün, müəyyən çətinliklərin, gərginliklərin azaldılması üçün və müsbət gündəliyə diqqət yetirmək üçün mühüm alətlərdən biridir. Bizim hədəfimiz Azərbaycanda müasir infrastruktur yaratmaq və ölkəni müasirləşdirməkdir. Eyni zamanda, məqsədlərimizə - siyasi, iqtisadi və maliyyə məqsədlərimizə fəal əməkdaşlıq və qarşılıqlı dəstək vasitəsilə nail olmaqdır.

**- Cənab Prezident, bilirəm ki, hətta indi digər çağırışlarla yanaşı, sizin ölkəniz müəyyən ərazi mübahisəsi ilə üz-üzə qalıb. Əlaqəlilik, infrastruktur, daha yaxşı mühitin qurulması və iqtisadiyyatın insanlarla alyansı Sizə bu problemi çözmək üçün fürsət tapmağa imkan verəcəkmi?**

- Mən əminəm ki, bu, bizim iyirmi ildən artıqdır işğal altında qalan torpaqlarımızın azad edilməsi üçün ən effektiv yollardan biridir. Müstəqilliyimizin ilk illərində biz Ermənistanın təcavüzünə və işğalına məruz qaldıq. Bunun nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi, torpaqlarımızın iyirmi faizi işğal altındadır. BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən və iyirmi beş il bundan əvvəl qəbul olunan dörd qətnaməsinə baxmayaraq, onlar icra olunmur. Buna görə də biz hədəfimiz olan ərazi bütövlüyümüzün bərpa edilməsi və bir milyondan artıq insanın evlərinə qayıtması üçün daha güclü, daha uğurlu və daha effektiv olmalıyıq. Buna görə də özümüzü təminetmə, öz resurs və ehtiyatlarımıza arxalanma siyasətimiz artıq bizi uğura aparır. Biz indi yaşayış standartlarını artırırıq, bizim yaxşı beynəlxalq nüfuzumuz var. Qeyd etdiyim kimi, biz demək olar ki, 250 milyard dollar investisiya cəlb etmişik. Biz hərbi potensialımıza çoxlu sərmayə yatırmışıq və öz qonşularımızla çox uğurlu əməkdaşlıq formatını yaratmışıq. Beləliklə, torpaqlarımızın işğalını davam etdirən ölkə bütün bunları qiymətləndirməlidir. Başa düşməlidir ki, onlar da bu böyük əməkdaşlıq formatının bir tərəfi ola bilərdi, yəni, enerji, neft-qaz, nəqliyyat, bağlılıq layihələrindən asılı olub-olmayaraq. Bütün bu layihələr onlardan yan keçir, bir səbəbə görə: səbəb işğaldır. İşğala son qoyulsa, onda əlbəttə ki, bizim regionumuzda daha geniş beynəlxalq əməkdaşlıq və davamlı sülh olardı.

**- Beləliklə, cənab Prezident, iqtisadi gücün və ölkənizin beynəlxalq arenada nüfuzunun artmasının Sizə bu problemin həllində kömək edəcəyinə inanırsınızmı?**

- Tamamilə belədir. Biz nəticələri görürük, biz müsbət dinamikanı görürük və səmimi desəm, görürük ki, beynəlxalq təşkilatların qətnamələri icra olunmur və buna görə cəza olmur. Dünyada aparıcı beynəlxalq təşkilat olan BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı qətnamə qəbul edir, lakin münaqişə həllini tapmır, qətnamələr icra olunmur. Buna görə də biz əlbəttə ki, beynəlxalq hüquqa arxalanmalıyıq, lakin, eyni zamanda, biz daha güclü olmalıyıq. Biz iqtisadi cəhətdən daha güclü olsaq, biz siyasi cəhətdən də daha güclü olacağıq. Biz milli maraqlarımıza əsaslanan müstəqil xarici siyasət yürüdə biləcəyik. Həmçinin biz xarici borcumuzun azalması üzərində çox işləmişik. Bu gün bu borc ümumi daxili məhsulun 19 faizi səviyyəsindədir. Bu da yaxşı göstəricidir. Lakin daha yaxşı göstərici xarici borcumuz və ehtiyatlarımız arasında olan nisbətdir. Bu nöqteyi-nəzərdən bizim sərbəst konvertasiya olunan valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Başqa sözlə, biz xarici borcumuzu bir neçə aya ödəyə bilərik və biz iqtisadi nöqteyi-nəzərdən heç bir ölkədən asılı deyilik.

**- Mən görürəm ki, Siz öz nailiyyətlərinizlə çox fərəhlənirsiniz. Lakin dünyamız çox fərqli dünyadır. Çünki qeyd etdiyiniz strateji düşüncələrə əsasən gündəlik olaraq müəyyən seçimlər etməlisiniz. Siz qloballaşmanı necə görürsünüz? Bu, artıq bir zarafat deyil və bir çox məqamların təzahürüdür. Cənab Prezident, bu böyük dəyişiklik xəritəsində Siz öz ölkənizi necə görürsünüz? Sizin və ölkəniz üçün olan düzgün yeri necə tutmaq olar?**

- Düşünürəm ki, Azərbaycan təcrübəsi, bizim əldə etdiyimiz nəticələr siyasətimizin doğru olduğunu nümayiş etdirir. Biz o qədər də sabit olmayan bir regionda yaşayırıq. Sərhədlərimizə yaxın zonada gərgin vəziyyət müşahidə olunur. Biz yeni münaqişə mənbələrini, yeni risk mənbələrini görürük. Buna görə də bizim əsas məqsədimiz Azərbaycanı potensial risklərdən qorumaqdır. Bunun üçün bayaq da qeyd etdiyim kimi, biz daxildə güclü olmalıyıq. Bunun üçün bizim qonşularımızla yaxşı münasibətlərimiz olmalıdır və bizim belə münasibətlərimiz var. Həmçinin dünyanın aparıcı mərkəzləri ilə də yaxşı münasibətlərimiz olmalıdır.

**- Siz nəyi nəzərdə tutursunuz?**

- Mən aparıcı ölkələri, aparıcı iqtisadiyyatları, dünya gündəmini müəyyən edən ölkələri, beynəlxalq sülh və təhlükəsizliyin asılı olduğu siyasət yürüdən ölkələri nəzərdə tuturam. Düşünürəm ki, biz milli maraqlarımızın, milli kimliyimizin, müstəqilliyimizin çox güclü müdafiəsi və eyni zamanda, qeyd etdiyim ölkələrlə yaxşı iş münasibətləri arasında balansı tapa bilmişik. Qonşularımızla münasibətlər prioritetdir, çünki biz regionda yaşayırıq. Lakin, eyni zamanda, bizə daha böyük gündəlik lazımdır. Çünki Azərbaycan coğrafi nöqteyi-nəzərdən böyük ölkə deyil. Lakin regionda edə bildiklərimiz, hansı töhfələri verə biləcəyimiz nöqteyi-nəzərindən biz coğrafiyamızdan daha böyüyük.

**- Bu balansı tapmaq üçün Sizdən nə tələb olunur? Biz artıq bunun müsbət və mənfi tərəflərini on illərdir ki, görmüşük. Lakin Sizə və ölkənizə ən yaxşı balansı tapmaq üçün nə lazımdır? Yeri gəlmişkən, bunu tapmaq o qədər də asan deyil. Siz bu balansa necə nail olursunuz?**

- Daxili və iqtisadi siyasət baxımından, əlbəttə, düşünürəm ki, bizim nailiyyətlərimizdən biri neft və qazdan əldə etdiyimiz gəlirlərin düzgün idarə edilməsinə nail olmağımızdır. Neft bizim iqtisadiyyatımıza, bizim xalqımıza, bizim infrastruktura, sosial problemlərin həllinə böyük dəstək olub. Bu kimi işlərin aparılması çox düzgün idi. Biznes dairələri, investorlarla qarşılıqlı fəaliyyət nöqteyi-nəzərindən biz çox yaxşı investisiya mühiti yaratdıq. Biz demək olar ki, 250 milyard dollar həcmində investisiya cəlb etdik.

**- Bəs, geosiyasi baxımdan necə? Bu, çox vacibdir, Sizin iqtisadiyyatınız çox yaxşı fəaliyyət göstərir, yaxşı gəlirləriniz var, onları düzgün yerlərə yatırırsınız. Biz hamımız bunu başa düşürük. Lakin daha mürəkkəb məsələ var?**

- Mən sizin dediyiniz suala gəlirəm. Lakin ölkə daxilində gördüyümüz işlərdən başlamaq istəyirəm. Düşünürəm ki, ölkələrlə, qonşularımızla, tərəfdaşlarımızla qarşılıqlı əlaqə baxımından uğurlu siyasətin, bəzən tarazlaşdırılmış siyasətin səbəblərindən biri odur ki, biz həmişə işimizə sadiq olmuşuq. Bəzən bizim tərəfdaşlar, qonşularımız bizimlə razılaşmaya bilər. Bəzən bizim işlərimiz onların xoşuna gəlməyə bilər. Lakin onlar həmişə bilirlər ki, biz dediyimizi həmişə edirik. Onlar bilirlər ki, imzamızla sözümüz eynidir. Biz heç vaxt heç kimi məyus etməmişik. Buna görə də bu, artıq etimad məsələsidir və Azərbaycan böyük etimad qazanan ölkədir. Bayaq da qeyd etdiyim kimi, digər ölkələrlə qarşılıqlı fəaliyyətdə bizim siyasətimiz müsbət ssenariyə əsaslanır. Biz müsbət tərəfdaş, dost olmaq istəyirik. Biz imkanımız olduqda kömək etmək istəyirik. Bu kömək vasitəsilə biz çox güman ki, müəyyən çətinliklərdən fayda götürməkdən daha çoxuna nail oluruq. Buna görə düşünürəm ki, Azərbaycan artıq müstəqil xarici siyasəti olan ölkə kimi tanınır və daxili sabitlik, iqtisadi inkişaf bizə bu gücü verir. Eyni zamanda, biz hər hansı bir ölkəyə zərər vurmuruq. Biz, sadəcə, daha yaxşı münasibətlər qurmaq, daha çox iş görmək, insanlarımıza daha yaxşı şərait qurmaq istəyirik, sülh və harmoniya içində yaşamaq istəyirik.

**- Cənab Prezident, dediyiniz kimi, ölkəniz coğrafi baxımdan çox əhəmiyyətli strateji mövqeyə malikdir. Sizin mühüm qonşularınız var: Rusiya, Çin və digər ölkələr. Avropa da Sizin üçün çox güclü potensialı olan qonşudur. Eyni zamanda, ABŞ-ın son günlər və illər ərzində çox fərqli mövqeyinin şahidisiniz. Cənab Prezident, elə bir zamandır ki, hamı bu mühitdə öz yeri üzərində düşünür. Hansı böyük ideyaları dəstəkləmək lazımdır? Ölkə daxilinə nə dərəcədə diqqət yetirmək zəruridir? Dünyaya nə dərəcədə açıq olmaq lazımdır? Maraqlarımız digərləri ilə nə dərəcədə üst-üstə düşür? Onlardan mənim payıma düşən nədir? Bütün bu suallar bir-biri ilə bağlıdır. Lakin lider kimi, ola bilsin, Siz bu haqda hər gün düşünürsünüz. Bu gün siyasi rəhbərin ən vacib keyfiyyətlərini nədə görürsünüz? Gələn nəsil liderlər üçün məsləhətiniz nə olardı?**

- Əlbəttə ki, dünya dəyişir, regionumuz dəyişir, bir çox hadisələr baş verir. Siz onları beş il əvvəl heç təsəvvür edə bilməzdiniz. Buna görə, hesab edirəm ki, hər bir lider hadisələri izləməlidir və baş verənlərə hər zaman diqqətli olmalıdır. Biz bir və ya iki ildən sonra dünyada nəyin baş verəcəyini bilmirik. Lakin bugünkü geosiyasi mühitə gəldikdə, fikrimcə, biz həmin mühitdə öz yerimizdə qərarlaşmışıq və bu mövqe bizi qane edir. Beynəlxalq siyasət nöqteyi-nəzərindən, əsas məqsədimiz elə bir xarici siyasətdən ibarətdir ki, onun ölkənin daxili vəziyyətinə müsbət təsiri olsun, bütün növ riskləri azaltsın. Zənnimcə, biz buna nail olmuşuq, çünki Azərbaycanda insanlar dinc şəraitdə yaşayır və ölkə sabitdir. Biz gələcəkdə nəyin olacağını bilmirik.

**- Qeyri-müəyyənlik Sizi çəkindirirmi? Yaxud, bu, Sizi həvəsləndirirmi? Bu cür hallar, eyni zamanda, həm çağırış, həm də imkanlar deməkdir?**

- Xarici siyasətin və mühitin bizə təsir göstərməsi baxımından düşünürəm ki, bu gün malik olduğumuz yetərlidir. Siz hər zaman daha yaxşı hal üzərində fikirləşə bilərsiniz. Hər zaman, hesab edə bilərsiniz ki, beynəlxalq vəziyyət sizin üçün daha üstün ola bilər, lakin buna nail olmaq üçün siz, həmçinin ürəkdən çalışmalısınız. Əgər siz oturub gözləsəniz, bu, heç zaman baş verməyəcək. Hazırda fikirləşirəm ki, ətrafımızda formalaşan beynəlxalq vəziyyət pisləşməsin. Bu, məni narahat edir. Əgər o, yaxşılaşarsa və biz onu daha da yaxşılaşdırsaq, töhfə versək, lap yaxşı. Lakin əgər bu, baş verməsə, onda bu gün olduğumuz vəziyyətdə qalsaq yaxşıdır, çünki Azərbaycan üçün bu günün beynəlxalq mühiti, fikrimcə, ən münasibdir və ən yaxşısıdır. O, bizə daxili məsələlərə, hələ də mövcud olan daxili problemlərə, onların dinc şəkildə həllinə diqqəti yönəltməyə imkan verir. Sizin müxtəlif ölkələrlə çətinlikləriniz, anlaşılmazlıq, toqquşmalar, qarşıdurmalar olanda, bu, sizin diqqətinizi başqa istiqamətə çəkir və sizə daxili məsələlərinizlə daha çox məşğul olmağa imkan vermir. Mənim üçün, bir Prezident kimi, ən vacibi xalqın gündəlik həyatı, iqtisadiyyatımız, sənayemiz, sosial problemlərimizin həllidir. Xarici siyasətimiz onun qoruyucusudur, ona zəmanət yaradır. Bugünə qədər siyasətimiz uğurlu olub. Lakin gələcəkdə nə baş verəcəyini gələcəyin özü göstərəcək.

**- Cənab Prezident, Çin Prezidenti Si Cinpin ötən ilin sonunda Sizin ad gününüz münasibətilə Sizə təbrik məktubu göndərdi. Əminəm ki, Siz o məktubu lazımi qaydada aldınız.**

- Bəli, əlbəttə.

**- Bu, təbii ki, Sizin və tərəfdaşlarınızın müxtəlif sahələrdə göstərdiyi səylərin təzahürüdür. Məsələn, "Bir kəmər, bir yol" təşəbbüsü. Bu təşəbbüsün də müxtəlif təfsiri və qavranılması var. Çinin təşəbbüsü kimi qarşılanan həmin layihə, əslində, regional təşəbbüs olub. O, daha çox tərəfdaşlar tərəfindən irəli sürülmüş platformadır. Siz, Azərbaycan Prezidenti kimi necə düşünürsünüz, bu platforma Sizə nə verə bilər? Onun sayəsində Siz nəyə nail ola bilərsiniz?**

- Haqlısınız, Prezident Si Cinpin, nəzakətlilik göstərib mənə ad günüm münasibətilə təbrik məktubu göndərdi. Mən də hər zaman onu doğum günü münasibətilə təbrik edirəm.

Çinə bir neçə il öncə çox uğurlu rəsmi səfərimi, Prezidentlə söhbətimi xatırlayıram. Yeri gəlmişkən, biz bir neçə mühüm sənəd imzaladıq və onlar əməkdaşlığımız üçün yaxşı çərçivə yaradır. Əlbəttə ki, səfərim və digər görüşlər zamanı biz "Bir kəmər, bir yol" təşəbbüsünü müzakirə etdik. Azərbaycan onu tam dəstəkləyir və Azərbaycanın bu təşəbbüsünün və layihənin çox fəal üzvünə çevrilməsi üçün biz əlimizdən gələni etmək istəyirik. Fikrimizcə, biz nəqliyyat şəbəkəsini Avropaya qədər uzatmışıq və Bakı-Tbilisi-Qars dəmir yolunu çəkməklə xətləri birləşdirdik. Lakin Çindən Avropaya doğru başlayan daşımaların çox sayda istiqamətləri var. Buna görə, biz bu prosesdə daha yaxından iştirak etmək arzusundayıq. Bu məqsədlə, əlbəttə ki, Mərkəzi Asiyada, Gürcüstanda, Türkiyədə və Avropadakı tərəfdaşlarımızla işləyirik. Təbii ki, əsas məqsədimiz Çindən yükləri qəbul etməkdən və onların daşınmasını təmin etməkdən ibarətdir. Azərbaycan daxilində hər şey hazırdır. Hazırda Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Bu, əsasən, tankerlər və digər yük gəmiləridir. Onlar Şərqdən Qərbə və geriyə malları daşıyırlar. Əlbəttə ki, daha çox Çin şirkətlərinin Azərbaycanda işlədiyini, ölkəmizə sərmayə qoyduğunu, yeni imkanlar tapdıqlarını görmək istərdik. Beləliklə, "Bir kəmər, bir yol" bizim üçün həqiqətən çox əhəmiyyətli layihədir. Biz onu qəti şəkildə dəstəkləyirik və onun çatışmayan hissəsinin yaradılmasına töhfə vermişik.

**- Çatışmayan hissə dedikdə nəyi nəzərdə tutursunuz?**

- Mən Bakıdan başlayan və Türkiyəyə gedən dəmir yolunu nəzərdə tuturam, çünki əvvəllər bu əlaqə yox idi və Asiyadan gələn yüklər Azərbaycan üzərindən Gürcüstanın Qara dənizdəki limanına daşınırdı. Türkiyəyə dəmir yolunun çəkilməsi ilə yüklər artıq Aralıq dənizinin sahilinə çatdırılır və eyni zamanda, dəmir yolu ilə birbaşa Avropaya daşınır. Buna görə, o, xərclərə qənaət, vaxt baxımından sürətli daşınma və bizim üçün daha çox gəlirin əldə olunması deməkdir.

**- Siz daha çox diqqət yetirirsiniz...**

- Nəyə?

**- İndicə qeyd etdiyiniz infrastruktur imkanlarına diqqət yetirirsiniz.**

- Bəli, birmənalı olaraq. Bakı-Tbilisi-Qars dəmir yolu xətti 2017-ci ilin sonunda açıldı. Bakının dəniz limanı ərazisində böyük mərasim təşkil edilmişdi və biz birinci yükü yola saldıq. Yeri gəlmişkən, biz, həmçinin Çindən yükləri artıq qəbul etməyə başlamışıq.

**- Lap yaxşı. Cənab Prezident, mənim sualım var. Adətən yeni ideya irəli sürüləndə və xüsusən də bu addımı yeni formalaşan və inkişaf edən ölkə atanda ona o qədər inamla yanaşmırlar. Bununla bağlı araşdırmalar və debatlar gedir. Lakin onun icrası üçün, həmçinin çox sayda həvəsləndirici yollar var. Bu, maraqlı balansdır, elə deyilmi? Yəni, skeptik yanaşma yaradıcı fikirlərlə əvəz edilə bilər. İnkişaf edən ölkənin Prezidenti kimi Siz buna necə yanaşırsınız?**

- Əlbəttə, bu, skeptik yanaşmanı doğuran təşəbbüslərdən, layihələrdən asılıdır. Deyə bilərəm ki, Azərbaycanın başlatdığı və ya qoşulduğu bütün layihələr bizim tərəfdən tamamlanıb. Azərbaycandan Aralıq dənizinə boru kəmərinin çəkilməsi haqqında düşünməyə başlayanda bizim də ətrafımızda çox skeptik yanaşma müşahidə olunurdu. Bunun mümkünsüz olacağı, heç zaman baş verməyəcəyi ilə bağlı çoxsaylı spekulyasiya, təhlillər və məqalələr oldu. Lakin bu, baş verdi.

**- Siz həmin şərhlərə necə baxırsınız?**

- Bilirsiniz, onlardan bəziləri, sadəcə, informasiyanın çatışmadığı, mümkünsüz görünən bu layihəni icra etməkdə qətiyyətimiz barədə məlumatın olmaması ilə bağlı idi. 2000-ci ilin əvvəlində həmin layihəni başladığımız zaman Azərbaycan bu gün olduğu qədər güclü deyildi. O vaxt biz xarici maliyyə dəstəyindən çox asılı idik. Skeptik ideyaların çox böyük qismi qeyri-ədalətli yarışma cəhdləri ilə bağlı idi. Mən bunu bu cür diplomatik formada təsvir edirəm. Buna görə, biz cavab tədbiri görmədik. Biz bildirdik ki, görəcəyimiz işlə cavab verəcəyik. Biz nəticələrlə cavab verməli idik. Bakı ilə Aralıq dənizindəki Ceyhan arasında uzunluğu təxminən 2 min kilometr olan boru kəməri çəkildikdən sonra hamı gördü ki, biz skeptik düşüncəni darmadağın etdik. Eyni yanaşma, daha böyük layihə olan "Cənub qaz dəhlizi"ndə müşahidə olundu. Bu, 7 ölkəni əhatə edən, təxminən 10-a yaxın beynəlxalq bankın, çoxsaylı şirkətlərin iştirak etdiyi, dəyəri 40 milyard ABŞ dolları olan layihədir. Bu layihəni biz başlatmışıq. Resursların həcmi, kəmərin necə tikiləcəyi, texniki çətinliklər, maliyyə mürəkkəbliyi və digər məsələlərlə bağlı çox skeptik fikirlər var idi. Biz isə dedik: biz bunu başlamışıqsa, bunu edəcəyik. İndi, demək olar ki, həmin layihə tamamlanmaq üzrədir. Buna görə, biz skeptik yanaşmaya sözlərlə deyil, atdığımız addımlarla, gördüyümüz işlə cavab verməliyik. Bundan fərəhlənə bilərik. Hazırda isə həmin layihəyə skeptik yanaşanların səsini artıq eşitmirik.

**- Cənab Prezident, bu baxımdan onlara işlərinizlə cavab verməkdə böyük müdrikliyinizi görürəm.**

- Sağ olun. Bəli.

**- Cənab Prezident, Çin və ölkəniz ikitərəfli ticarət üzərində çalışıblar. Bugünə olan məlumata görə, Azərbaycanla ticarət aparan ölkələr arasında Çin hələ ki iyirmi beşinci yerdədir. Bilirəm ki, Siz və Çin rəhbərliyi daha yaxşı iqtisadi və ticari əlaqələr yaratmaqda çox israrlısınız. Cənab Prezident, bu sahəni necə inkişaf etdirmək olar və insanlar arasında onların gündəlik həyatına müsbət təsir göstərəcək təmasları necə artırmaq olar? Regionunuzun daha cəlbedici olması üçün nə etmək lazımdır? Bu, həm Sizi, həm digər region rəhbərlərini maraqlandıran sualdır...**

- Bəli, haqlısınız. Biz bunun üzərində işləyirik. İnsanlar arasında təmaslara gəldikdə, bu yaxınlarda biz Çin vətəndaşları üçün viza məhdudiyyətlərini aradan qaldırmışıq. Hazırda Azərbaycana səfər etmək istəyən hər kəs öz evindəki kompüter vasitəsilə maksimum üç gün və hətta bəzən bir neçə saat ərzində elektron viza ala bilər. Bu, tərəfdaşlığımızın təzahürü olaraq, Çin vətəndaşlarının ölkəmizə səfərləri üçün daha yaxşı imkanların yaradılmasına görə edilmişdir. Ticarətimizi inkişaf etdirmək məqsədilə biz bir neçə ixrac missiyalarını Çinin müxtəlif bölgələrinə göndərmişik. Artıq yaxşı nəticələrimiz var. Biz Çində Azərbaycan şərabları evlərini açmışıq. Biri Şanxaydadır, digəri isə başqa şəhərdədir. Çində təşkil olunan böyük sərgilərdə dövri olaraq öz kənd təsərrüfatı məhsullarımızla iştirak edirik. Biz çinlilərə nailiyyətlərimizi göstərmək istəyirik və mallarımız üçün çox böyük, əhəmiyyətli, cəlbedici bazara çıxışı əldə etmək arzusundayıq. Eyni zamanda, qapılarımız Çinin iş adamları üçün açıqdır. Artıq söylədiyim kimi, biz onları daha çox sərmayədar, ticarət aparan tərəf, podratçı kimi görmək istərdik. İşləyəcəyimiz daha çox sahələr var. Əlbəttə ki, Azərbaycanda, həmçinin onun enerji sektorunda işləyən Çin şirkətləri var. Lakin hesab edirəm ki, bu, istədiyimiz qədər deyil. Bu, xüsusən də podratçı və ticari layihələrə aiddir. Fikrimcə, biz bunu birgə etməliyik və bizim üçün bu, əsas prioritetlərdən biridir. Biz bu yaxınlarda ticarət nümayəndəliklərini yaratmağa başlamışıq. Azərbaycanın ilk ticarət nümayəndəliklərindən biri Çində açıldı. Bütün bunlar ticarət sahəsində güclü tərəfdaşlığı qurmaqda, insanlar arasında təmasların yaradılmasında iradəmizi nümayiş etdirir. Bu isə, avtomatik olaraq, həyatımızın bütün başqa sahələrinə müsbət təsir göstərəcək.

**- Cənab Prezident, dünyada böyük dəyişikliklər baş verir. Siz bunu əvvəldə dediniz. Siz rəhbərin, yəni, ölkə rəhbərinin qlobal səviyyədə ən mühüm keyfiyyətini nədə görürsünüz? Mən burada böyük praqmatik yanaşmanın şahidiyəm. Sizin gərgin fəaliyyətinizdən məlumatlıyam. Cənab Prezident, rəhbərin ən mühüm keyfiyyəti hansıdır?**

- Fikrimcə, bir neçə çox əhəmiyyətli məsələ var. Xatırladığım birinci məsələ uzunmüddətli inkişaf strategiyasının planlaşdırılmasıdır. Yəni, səyləri yalnız siyasi gündəlikdə duran tədbirlərlə məhdudlaşdırmaq lazım deyil. Siz xalqınızın 20 və ya 30 ildən sonra ölkənizi hansı səpkidə görmək arzusuna bələd olmalısınız və həmin məqsədə çatmaq üçün bu gün nə edəcəyinizi bilməlisiniz. Başlanğıcda biz uzunmüddətli infrastruktur haqqında danışırdıq. Bundan çox vaxt keçir. Lakin bu gün o, artıq öz nəticələrini verir. Fikrimcə, bu işlər, ilk növbədə, vacibdir. İkinci ən mühüm məsələ xalqa heç zaman yalan danışmamaq. Heç zaman həqiqət olmayan məsələni deməmək və icra edə bilməyəcəyiniz vədləri verməməkdir. Mənə gəldikdə, mən çalışıram və hesab edirəm ki, bu meyarlara cavab verməyi bacarıram. Eyni zamanda, səni tənqid edənlərə nail ola biləcəyin işlərlə cavab verməlisən. Əgər sənin haqqında danışan və yazan, səni tənqid edən və hücum çəkən hər kəsə cavab versən, sadəcə, vaxtını itirəcəksən, özünü o səviyyəyə salacaqsan. Lakin cavabını işlərinlə göstər. Biz, fikrimcə, buna nail olmuşuq və skeptik düşüncədə olanların hamısına, bilərəkdən bu cür davrananlara, səylərimizi sual altına almağa, qarşımızda maneə yaratmağa çalışanlara belə cavab verdik. Biz Bakıya gələn hər kəsə bunu göstəririk və onlar bilir. Onlar paytaxtın gözəlliyinin şahidi olur, bölgələrə gedirlər və nəticələri görürlər. Hesab edirəm ki, bu iki məsələ həm ölkə, həm liderin özü üçün vacibdir. Əgər o, istəyirsə ki, xalq ona inansın, etimad etsin, dəstəkləsin, bu iki məsələ hər zaman liderin gündəliyində olmalıdır.

**- Sözlər deyil, işlər daha güclüdür. Cənab Prezident, Sizinlə görüşməkdən çox məmnun oldum. Sizə Davosda böyük uğurlar arzu edirəm.**

- Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev CGTN televiziya kanalının xatirə kitabına ürək sözlərini yazdı.




# ABŞ "demokratiyası"nın qara üzü

## Dünyada insan hüquqlarının, demokratiyanın ən çox pozulduğu ölkənin mediası da qərəz və böhtanın ruporuna çevrilib

*Əvvəli 1-ci səh.*

Onların M.Hüseynov məsələsindən istifadə edərək ölkəmizə qarşı yenidən fəallaşmaları Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılanmaqdadır.

Xatırladaq ki, 2019-cu il yanvarın 20-də Azərbaycan Respublikasının Prezidentinə müraciət edən məhkum M.Hüseynov barəsində aparılan istintaqın obyektivliyinin təmin edilməsini və ədalətli qərar qəbul olunmasını xahiş edib. Bundan öncə isə bir qrup hüquq müdafiəçisi M.Hüseynova baş çəkib, onun saxlanma şəraiti ilə tanış olub, özü ilə söhbət edib. Onlar müəyyən ediblər ki, M.Hüseynovun saxlanma şəraiti ilə, onunla rəftarla bağlı heç bir şikayəti yoxdur və o, aclıq aksiyası da keçirmir.

Prezident İlham Əliyev ədalət və humanizm prinsiplərini önə çəkərək ona olan müraciətləri nəzərə alıb və cinayət işi üzrə araşdırmanın obyektiv aparılmasını, ədalətli və humanist qərar qəbul olunması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirlərin görülməsini Baş prokurora tövsiyə edib. İstintaq orqanı tərəfindən M.Hüseynovun gənc olduğu, cəza çəkdiyi müddətdə intizam məsuliyyətinə cəlb edilmədiyi, islah olunma yoluna qədəm qoyduğu, ailəsində qayğıya ehtiyacı olan yaşlı və tək yaşayan atasının olduğu, törətdiyi cinayətin az ağır cinayətlər kateqoriyasına aid olmaqla, hazırda onun əməlinin və şəxsiyyətinin cəmiyyət üçün təhlükəli olmadığı nəzərə alınaraq barəsindəki cinayət işinin icraatına xitam verilib.

Göründüyü kimi, M.Hüseynov məsələsi antiazərbaycançı dairələr tərəfindən sadəcə şişirdilib, məqsədyönlü şəkildə ölkəmizdə insan hüquqlarının pozulması kimi qələmə verilib. Bu baxımdan "Washington Post" qəzetində dərc olunan məqalə də, Avropa Parlamentinin bədnam qərarı da yalnız bir məqsədə - Azərbaycanın mənfi imicinin formalaşmasına, qazandığı uğurlara kölgə salmağa hesablanıb.

Lakin məsələnin təəssüf doğuran tərəfi sözügedən məqalənin ABŞ-ın siyasi dairələrinə yaxın olan, bu ölkənin maraqlarını müdafiə edən bir qəzetin səhifələrində dərc olunmasıdır. Məqalədə Azərbaycanda 128 "siyasi məhbus"un olduğu iddia edilir. Bu isə qəbuledilməzdir. Müxtəlif cinayətlərə - xuliqanlıq, vergidənyayınma, ictimai asayişi pozma və digər bu kimi hallara görə məsuliyyətə cəlb olunan insanlardan qondarma "siyasi məhbus" siyahısı hazırlamaq demokratiyaya ən böyük parodiyadır və absurddur.

ABŞ-da belə hərəkətlərə yol verənlər polis tərəfindən ani itaətsizliyə görə yerindəcə güllələnir. Cəmi bir neçə il bundan əvvəl baş verən Ferqyuson və Baltimor hadisələri bunu təsdiq edir. Ferqyusonda insanlar məhz dərisinin rənginə görə polislər tərəfindən öldürüldülər. O zaman ABŞ-da insan hüquqlarının pozulması barədə ayrı-ayrı ölkələrin hüquq müdafiəçiləri bəyanat versələr də, Vaşinqtondakı rəsmi dairələr bunun ölkənin daxili işi olduğunu bildirdilər. Amma indi həmin ABŞ-ın hansısa dairələri Azərbaycanda "demokratiya" axtarışına çıxıb. Gözündəki tiri görməyənlər indi başqasının gözündə tük axtarırlar, özü də bu tük yoxdursa...

"Washington Post"un iddia etdiyi siyasi məhbus axtarışına çıxsaq, aydın görərik ki, onların sayı 128 cinayətkarla yox, bir milyondan artıq həmvətənimizlə əhatə olunur. 1 milyondan artıq qaçqın və məcburi köçkün indi öz vətənində ABŞ-ın məlum qruplarının siyasi dəstəyi ilə gerçəkləşən təcavüzün siyasi məhbusları və qurbanlarıdır. BMT-nin ən yüksək qurumu olan Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının azad olunması və məcburi köçkünlərin öz evlərinə qayıtması üçün 4 qətnamə qəbul edib. Digər beynəlxalq təşkilatlar da müvafiq qərarlar qəbul ediblər. Lakin bütün bunlar BMT TŞ-nin daimi üzvü olan və həmişə "insan hüquqlarını" əlində bayraq edən ABŞ tərəfindən indiyədək gözardı edilib. ABŞ bu qətnamələrin icrasının ləngiməsinin əsas səbəbkarlarındandır. Eyni zamanda ABŞ Qarabağdakı separatçı rejimə hər il maliyyə yardımı edir. Bir dəfə də olsun "Washington Post" və digər ABŞ qəzetlərində bir milyondan artıq azərbaycanlının hüquqlarının pozulması barədə nəinki məqalə, heç bir cümlə də dərc olunmayıb.

Bu məqamda onu da əlavə edək ki, bu günlərdə 29-cu ildönümü tamam olan 1990-cı ilin 20 Yanvar hadisələrinə ABŞ da öz "töhfəsini" vermişdi. O zaman Con Kerri başda olmaqla bir qrup amerikalı konqresmen Qorbaçovdan xahiş etmişdi ki, Azərbaycanda "hüquqları pozulan" erməniləri müdafiə etməkdə, tədbir görməkdə tələssin. 1990-cı ilin yanvarında şəhid olan azərbaycanlılar da ABŞ-ın erməni təəssübkeşliyinin, antiazərbaycançı münasibətinin siyasi qurbanlarıdır.

Zənnimizcə, öz səhifələrində başqalarının işinə qarışan "Washington Post" qəzeti ABŞ-da insan hüquqlarının pozulmasından və ya ABŞ-ın dünyanın ayrı-ayrı yerlərində dinc insanların başına açdığı oyunlardan bəhs etsə, daha yaxşı olar və bu zaman mətbu orqan kimi KİV-in əsas prinsiplərinə daha düzgün əməl edər.

Əsl siyasi məhbuslar elə ABŞ-ın özündədir. İnsanlar dərisinin rənginə, dini inanclarına, ideoloji baxışlarına, milli mənsubiyyətlərinə görə təqib olunur, həbsə atılırlar. ABŞ-ın özündə baş verən hadisələr göstərir ki, bu ölkədə insan hüquqları kütləvi şəkildə pozulmaqdadır. Dinc nümayişçilərin polisin qəddar zorakılığı ilə üzləşməsi, Ferqyuson və Baltimor hadisələri, qaradərililərə qarşı ayrıseçkilik, hər il onlarla qaradərililərin polis tərəfindən güllələnməsi, müsəlmanlara qarşı dözümsüzlük, miqrantlara qarşı aşağılayıcı münasibət, xaricdən gələnlərlə bağlı yaranan qeyri-şəffaf və qeyri-bərabər əmək münasibətləri bugünkü ABŞ-ın acı reallıqlarıdır. Ona görə, bəzilərinin iddia etdiyi kimi, ABŞ heç də demokratiyanın "təminatçısı" ola bilməz. ABŞ əslində istismarın, günahsız insanların qətlinin, dövlətlərin məhvinin, insanlara qarşı ayrıseçkiliyin, islamofobiyanın, ksenofobiyanın müəllifidir.

Bundan başqa, İraqda, Suriyada, Əfqanıstanda illərdir bitməyən daxili münaqişələr ABŞ hakimiyyətlərinin başlatdıqları qanlı planların nəticəsi deyilmi? Əbu-Qreyb, Quantanamo həbsxanaları ABŞ demokratiyasının "rəmzləri" deyilmi? İnsanlara məhz müsəlman olduqlarına görə, Hitler Almaniyasında olduğu kimi, ən qəddar metodlarla işgəncə verilib. Hansısa terrorçu təşkilatlarda iştirakı təsdiqini tapmasa da, yüzlərlə müsəlman heç bir istintaq aparılmadan, məhkəmə qərarı olmadan uzun illər ərzində ağır həbsxana rejimində, ən qəddar işgəncə altında yaşayıb. Onların bir çoxu bu işgəncələrə dözməyərək həyatı ilə vidalaşıb və ya şikəst olub.

Bu mənada ABŞ "demokratiyası"nın qara üzü barədə kifayət qədər danışmaq olar. "Washington Post"da dərc olunan məqalənin timsalında Azərbaycana qarşı edilən bütün qarayaxma cəhdlərinin hamısı faydasızdır.

Aydındır ki, antiazərbaycançı dairələrin məqsədi hansısa həbs olunan cinayətkar və ya M.Hüseynov deyil. Onların məqsədi müstəqil Azərbaycan dövlətinə zərbə vurmaq, Azərbaycanın müstəqilliyini, inkişafını və dünyada artan nüfuzunu sarsıtmaqdır. Lakin özlərinə gün kimi aydındır ki, Azərbaycan dövlətinə qarşı istənilən təzyiq və təsir metodları iflasa məhkumdur. Azərbaycanın müstəqilliyini, inkişafını, ölkədəki xalq-iqtidar birliyini heç bir qüvvə sarsıda bilməz.

Dünyada insan hüquqlarının və demokratiyanın ən çox pozulduğu ölkənin mediasına isə son xatırlatma: şüşəli evdə yaşayan başqasına daş atmaz...

***"AZƏRBAYCAN"***

# Milli Məclisin İnsan hüquqları komitəsinin yaz sessiyasında ilk iclası keçirildi



Yanvarın 22-də Milli Məclisin İnsan hüquqları komitəsinin yaz sessiyasında ilk iclası keçirildi. Milli Məclis Sədrinin müavini, komitənin sədri Bahar Muradova əvvəlcə 2018-ci ilin payız sessiyası dövründə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, hesabat dövründə komitəyə 419 sənəd daxil olub. Komitənin rəhbərliyi tərəfindən 95 vətəndaş qəbul edilib. Layihə və ərizələrə baxılması üçün komitənin adından müvafiq orqanlara 258 məktub göndərilib. Aidiyyəti üzrə baxılması üçün göndərilən məktublardan 160-ı nəzarətə alınıb və onlardan 145-i həllini tapıb. 2018-cı ilin payız sessiyası ərzində komitənin altı iclası keçirilib və 7 məsələ müzakirə olunub.

Deputatlar komitənin payız sessiyası dövründə fəaliyyətini qənaətbəxş qiymətləndirdilər.

Daha sonra komitənin 2019-cu il yaz sessiyası üçün nəzərdə tutulan qanunvericilik işləri planı müzakirə olunub təsdiqləndi.

İclasda gündəmdə olan məsələlərə dair fikir mübadiləsi də aparıldı. Bahar Muradova qeyd etdi ki, Azərbaycan hər zaman öhdəliklərinə sadiq və müasir yanaşmaya açıq demokratik bir ölkədir. Azərbaycanda ölkənin inkişafı üçün yürüdülən siyasətə həm parlament, həm də xalq dəstəyi həmişə hiss olunur. İnsan hüquqları hər zaman cəmiyyət və parlament tərəfindən ictimai nəzarətdə saxlanılır.

İclasda qarşıdakı sessiya müddətində komitədə Gənclər Günü, Xocalı soyqırımının ildönümü, Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar və digər tədbirlərin keçiriləcəyi barədə ətraflı məlumat verildi.

Komitə üzvləri "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəni də müzakirə etdilər. Qeyd edildi ki, qanuna edilən dəyişikliyə əsasən vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsin də fərdi identifikasiya kartının alınması üçün müraciət etmək hüququ var.

Həmçinin "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanunda dəyişiklik edilməsi haqqında və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri də iclasda müzakirə edildi.

Qanun layihələri Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Bakı Şəhər Baş Polis İdarəsində 2018-ci ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib






Yanvarın 22-də daxili işlər naziri general-polkovnik Ramil Usubovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2018-ci ilin yekunlarına həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirəni açan nazir qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən quruculuq işləri, uğurla davam etdirilən hüquq mühafizə siyasəti, ictimai münasibətləri tənzimləyən mexanizmlərin təkmilləşdirilməsi, bütün bunlarla əlaqədar nazirlik tərəfindən icraya yönəldilən əmr və göstərişlər paytaxt polisinin fəaliyyətinə də öz müsbət təsirini göstərib. O, hesabat dövründə çoxsaylı beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə ictimai asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini, mümkün təxribat hallarının qarşısının vaxtında alınması üçün bütün zəruri tədbirlərin həyata keçirildiyini xüsusi vurğulayıb.

Sonra Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidov hesabat dövründə cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin olunması, xidməti fəaliyyətin digər istiqamətlərində görülmüş işlər, əldə olunmuş nəticələr və qarşıda duran vəzifələr barədə geniş məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2018-ci ildə paytaxtda Daxili İşlər Nazirliyi və prokurorluq üzrə 11813 cinayət qeydə alınıb. Onların da 88,9 faizini az ağır və böyük ictimai təhlükə törətməyən cinayətlər təşkil edib. 2017-ci illə müqayisədə ümumi cinayətlər 2,5 faiz, ağır və xüsusilə ağır cinayətlər 30,8 faiz, şəxsiyyət əleyhinə olan cinayətlər 4,5 faiz, mülkiyyət əleyhinə olan cinayətlər 8,4 faiz azalıb.

Məruzəçi təqsirləndirilən şəxs qismində axtarışda olanların 76,6, ağır və xüsusilə ağır cinayətlərə görə axtarılanların isə 55,5 faizinin tutulduğunu, bununla yanaşı, ağır və xüsusilə ağır cinayətlər törətmiş 620 nəfərdən ibarət 241 cinayətkar qrupun ifşa olunduğunu diqqətə çatdırıb.

Narkotiklərlə bağlı aşkar edilmiş 890 fakt üzrə qeyri-leqal dövriyyədən 349 kiloqramdan çox narkotik vasitənin çıxarıldığı, ümumilikdə 103 odlu silah, 20 mərmi, 21 qumbara, 3682 ədəd döyüş patronunun yığıldığı, qanunsuz saxlanılan və gəzdirilən 42 odlu silahın isə əməliyyat yolu ilə götürüldüyü qeyd olunub. Bildirilib ki, 2017-ci illə müqayisədə yol-nəqliyyat hadisələrinin və qəzalarda xəsarət alanların sayı 4,2 faiz azalsa da, həlak olanların sayı 2,4 faiz artıb. Yol hərəkətinə nəzarət prosesində 864 min 216 inzibati xəta aşkar olunub, o cümlədən 132 avtoxuliqan barəsində qanunauyğun tədbirlərin görülməsi təmin edilib.

Baş İdarənin rəisi, eyni zamanda, xidməti fəaliyyətdə mövcud nöqsanlara da toxunaraq onların aradan qaldırılması ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr haqqında geniş məlumat verib.

Məruzə ətrafında çıxış edən aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəisləri hesabat ilində əldə olunmuş müsbət nəticələri, yol verilmiş nöqsan və çatışmazlıqları qeyd edərək onların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirləri diqqətə çatdırıblar.

Müşavirəyə yekun vuran nazir ötən il paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki fəaliyyətini ümumən müsbət qiymətləndirib, konkret tapşırıq və tövsiyələrini verib. O da diqqətə çatdırılıb ki, fəaliyyətin təkmilləşdirilməsinə, analitik işin, idarəçilik və təşkilatçılıq fəaliyyətinin günün tələbləri səviyyəsinə yüksəldilməsinə, yeni informasiya texnologiyalarının xidməti fəaliyyətdə geniş tətbiqinə yönəlmiş tədbirlər cari ildə də səmərəli şəkildə həyata keçirilməlidir.

Xüsusi qeyd olunub ki, hər bir əməkdaş şərəfli polis adını, dövlətin və vətəndaşların qanuni mənafelərini, vəzifə borcunu daim uca tutmalı, etik davranış qaydalarına ciddi riayət etməlidir. Xidməti fəaliyyətdə başlıca məqsəd isə vətəndaş məmnunluğunun təmin edilməsi olmalıdır.

Bu gün qanunla müəyyənləşdirilmiş vəzifələrin uğurla yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bütün lazımi şəraitin yaradıldığını, şəxsi heyətin böyük dövlət qayğısı ilə əhatə olunduğunu vurğulayan general-polkovnik Ramil Usubov əmin olduğunu bildirib ki, dövlət başçısının bu ali diqqətinə və etimadına cavab olaraq Bakı şəhər polis orqanlarının şəxsi heyəti üzərinə düşən vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcək, əldə edilmiş müvəffəqiyyətlərdən arxayınlaşmayaraq xalqa, dövlətə ləyaqətlə xidmət edəcək.

# Təhsil naziri Dünya Təhsil Forumunda çıxış edib






"Azərbaycanda müəllim peşəsinin nüfuzunun artırılması ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas hədəflərindən biridir".

Bu sözləri təhsil naziri Ceyhun Bayramov 20-23 yanvar tarixlərində Londonda keçirilən Dünya Təhsil Forumunda iştirakı zamanı deyib.

Forumun ikinci günündə "Təlim və tədris keyfiyyətinin yaxşılaşdırılması imkanları" adlı sessiyada çıxış edən nazir "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində aparılan islahatlar barədə ətraflı məlumat verib.

Ceyhun Bayramov ali məktəblərə qəbul imtahanında yüksək nəticə qazanan məzunları müəllimlik ixtisasına təşviq edən təqaüd proqramı, modul üzrə ixtisasartırmanın təşkili, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılmasının bu sahədə keyfiyyətcə yeni mərhələnin başlandığından xəbər verdiyini də vurğulayıb.

Nazir eyni zamanda Təhsil Nazirliyi tərəfindən təhsilin keyfiyyətinin artırılması istiqamətində görülən işlər və həyata keçirilən pilot layihələrə dair məlumatı iştirakçıların nəzərinə çatdırıb.

Daha sonra nazir sessiya çərçivəsində forum iştirakçılarının suallarını cavablandırıb.

Qeyd edək ki, forum dünyanın 80-dən çox ölkəsinin təhsil naziri və nazir müavinləri, aparıcı ali təhsil müəssisələrinin rəhbərləri, beynəlxalq təşkilatların və müxtəlif sahələrdə ixtisaslaşan özəl şirkətlərin nümayəndələrini bir araya toplayıb.

Dünya Təhsil Forumu Britaniyanın Xarici İşlər Nazirliyi, hökumətin təhsil, biznes və innovasiyalar, beynəlxalq inkişaf departamentləri, həmçinin Britaniya Şurası və bir çox sənaye tərəfdaşlarının dəstəyi ilə həyata keçirilir.

Səfər çərçivəsində Ceyhun Bayramovun həmçinin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, Britaniya Şurasının sədri Kristofer Rodriqes və digər rəsmi şəxslərlə işgüzar görüşlərinin keçirilməsi nəzərdə tutulub.

***"Azərbaycan"***

# Azərbaycan 3088 çeşiddə məhsul ixrac edir

## *Şahin MUSTAFAYEV:* “Prezidentin məqsədyönlü siyasəti nəticəsində respublikamız dünyanın ən çox islahat aparan ölkəsi elan olunub”

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclası keçirilib.

### Azərbaycanın yeni rekordu

İqtisadiyyat naziri Şahin Mustafayev vurğulayıb ki, 2018-ci ildə beynəlxalq müstəvidə uğurlar əldə olunub, ölkəmizin dünyada artan nüfuzu daha da güclənib. Dövlət başçısı tərəfindən iqtisadi inkişaf baxımından uğurlu il kimi qiymətləndirilən 2018-ci ildə makroiqtisadi sabitlik təmin olunub, iqtisadi artım 1,4% təşkil edib, qeyri-neft sektoru 1,8%, sənaye istehsalı 1,5%, qeyri-neft sənaye məhsulu 9,1%, kənd təsərrüfatı 4,6%, əhalinin nominal gəlirləri 9,2% artıb. Əsas kapitala 17,2 mlrd. manat investisiya qoyulub ki, bunun da 65,5%-i və ya 11 mlrd. manatdan çoxu qeyri-neft sektoruna yönəldilib. 2018-ci ilin yanvar-noyabr aylarında xarici ticarətdə müsbət saldo 8,6 mlrd. dollar təşkil edib, ixrac 36% artaraq 19 mlrd. dollara çatıb. 2018-ci ildə ölkənin valyuta ehtiyatları 3 mlrd. dollar artıb və hazırda 45 mlrd. dollar təşkil edir. Ötən il 118 min daimi iş yeri açılıb. Xarici borcun ÜDM-ə nisbəti 19%-dək enib.

Ötən il iqtisadiyyatda xüsusi əhəmiyyət kəsb edən “Cənub qaz dəhlizi”nin rəsmi açılışı olub, TANAP layihəsi fəaliyyətə başlayıb, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, “Star” neft emalı zavodu istifadəyə verilib. 2018-ci ilin sentyabrında orbitə buraxılan və kommersiya baxımından çox əlverişli layihə hesab edilən Azərbaycanın üçüncü peyki - “Azerspace-2” ölkəyə böyük həcmdə valyuta gətirəcək.

Nazir vurğulayıb ki, Azərbaycanın əldə etdiyi nailiyyətlər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatların, yürüdülən məqsədyönlü siyasətin nəticəsidir ki, “Doing Business 2019” hesabatında ölkəmiz yeni rekorda imza atıb, 10 ən islahatçı dövlət siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub və əvvəlki illə müqayisədə 32 pillə irəliləməklə 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında lider mövqeyə yüksəlib.

2018-ci ildə infrastrukturun inkişafı istiqamətində mühüm işlər görülüb, Ələt-Astara-İran avtomobil yolu istifadəyə verlib, 2300 km magistral, şəhərlərarası və kənd yolları çəkilib. Hazırda turizmin inkişafında mühüm önəm kəsb edən Ləki-Qəbələ dəmir yolunun tikintisinə başlanılıb, “Şahdağ” kurortuna dəmir yolunun çəkilişi üçün isə layihə sənədləri hazırlanır.

Şahin Mustafayev qeyd edib ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası başa çatdırılıb. Dövlət başçısının tapşırığına əsasən, növbəti dövlət proqramının layihəsi hazırlanır və artıq işlər başa çatmaqdadır. Ötən il sahəvi dövlət proqramlarında, eləcə də “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında və strateji yol xəritələrində İqtisadiyyat Nazirliyinin icraçısı və əlaqələndiricisi olduğu tədbirlərin icrası davam etdirilib.

Nazir qeyd edib ki, dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, 2018-ci ildə də yeni sənaye müəssisələri açılıb, mövcud müəssisələrin istehsal gücü artırılıb, bir sıra mühüm sənaye obyektlərinin tikintisinə başlanıb. Qeyri-neft sənayesinin istehsal və ixrac potensialının artırılmasında effektiv mexanizmlər - sənaye parkları və məhəllələrinin təşkili işləri davam etdirilib.

### Sənaye parklarına 2,9 milyard ABŞ dolları investisiya qoyulub

Ötən il Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Polymer” MMC-nin polipropilen zavodu, inşaat kimyəviləri zavodu, “Tabaterra” QSC-nin tütün məmulatları istehsalı fabriki, əlvan metallar və ferroərintilər zavodu açılıb. Bundan başqa, 2018-ci ildə parkın ərazisində elektron təhsil avadanlıqları, şüşə və saxsı məmulatların istehsalı müəssisələri fəaliyyətə başlayıb. Bu günlərdə isə sənaye parkının daha bir rezidenti - “SOCAR karbamid” zavodu istifadəyə verlib. 2019-cu ildə daha 5 müəssisənin istismara verilməsi nəzərdə tutulur.

“Yaşıl iqtisadiyyat”ın və təkrar emal sənayesinin inkişafında mühüm rolu olan Balaxanı Sənaye Parkında 2018-ci ildə taxta tullantılarının emalı və kömür, plastik torlar, qablaşdırma və etiket, maqnezium oksid panellərin, işlənmiş avtomobil şinlərinin emalı və tullantı taxtalardan pellet və taxta unu istehsalı, avadanlıq və dəzgahların bərpası sahələri üzrə 6 rezident qeydiyyata alınıb. Hazırda Balaxanı Sənaye Parkının 14 rezidenti var və onlar tərəfindən 37,3 mln. manat investisiya yatırılıb.

2018-ci ildə Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə - pambıq-poliester və “OpenEnd” üsulu ilə iplik istehsalı fabrikləri istifadəyə verilib, 750 iş yeri açılıb. İnvestisiya dəyəri 144 mln. manat olan fabriklərin yaradılmasına 10 mln. manat güzəştli kredit verilib. Müasir texnologiyalar əsasında qurulmuş fabriklər Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərinin avadanlığı ilə təchiz edilib. Fabriklərdə pambıq mahlıcından ildə 20 min ton iplik istehsal olunacaq.



Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında fəaliyyət göstərən Bakı Gəmiqayırma Zavodunda 2 min nəfər işlə təmin olunub. Bu il “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” üçün dəyəri 82 mln. ABŞ dolları təşkil edən 2 Ro-Pax tipli unikal gəminin və dəyəri 28 mln. ABŞ dolları təşkil edən 2 neft tankerinin təhvil verilməsi planlaşdırılır.

Pirallahı Sənaye Parkında investisiya dəyəri 100 mln. ABŞ dollarından artıq olan əczaçılıq, şpris və uşaq bezlərinin istehsalı müəssisələrinin yaradılması işləri aparılır. 2019-cu ilin birinci rübündə istifadəyə verilməsi nəzərdə tutulan şpris zavodu daxili tələbatı ödəməklə yanaşı, əlavə ixrac imkanları da yaradacaqdır. 2019-cu ilin birinci rübündə Azərbaycan-Rusiya birgə müəssisəsi olan “R-Pharm” MMC tərəfindən dərman vasitələrinin qablaşdırılmasına başlanması nəzərdə tutulur.

İqtisadiyyat naziri diqqətə çatdırıb ki, sənaye parklarının ümumi investisiya portfelinin həcmi 3,8 mlrd. ABŞ dolları təşkil edir. İndiyədək sənaye parklarına 2,9 mlrd. ABŞ dolları həcmində investisiya qoyulub. Təkcə 2018-ci ildə rezidentlər tərəfindən 450 mln. ABŞ dolları sərmayə yatırılıb. Sənaye parklarında 40, o cümlədən 2018-ci ildə 11 rezident qeydiyyata alınıb. Bu rezidentlərin 21-i artıq istehsal fəaliyyətinə başlayıb. Tikintidə və istehsalatda 10 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə 1 mlrd. ABŞ dollarınadək investisiya qoyuluşu, 7000-ə yaxın iş yerinin açılması gözlənilir.

2018-ci ildə sənaye məhəllələrinin yaradılması prosesi davam etdirilib. Qeyd edək ki, ilk sənaye məhəlləsi 2017-ci ildə Neftçalada istifadəyə verilib. Ötən il açılışı olmuş və kiçik və orta sahibkarlığın inkişafında əhəmiyyətli rolu olan Masallı Sənaye Məhəlləsində hazırda 10 müəssisə fəaliyyət göstərir. Sənaye məhəlləsinə sahibkarlar tərəfindən 5,3 mln. manat investisiya yatırılıb və 200-dən çox iş yeri açılıb. Hacıqabul Sənaye Məhəlləsində tikinti-quraşdırma işləri başa çatdırılıb, Sabirabad Sənaye Məhəlləsində isə tikinti işləri davam etdirilir.

### “Cocuq Mərcanlı” brendi

Ümumilikdə istifadəyə verilən 2 sənaye məhəlləsinə 50 mln. manatdan çox özəl investisiya yatırılıb, 700-dək iş yeri yaradılıb. Digər 2 sənaye məhəlləsinin istifadəyə verilməsi ilə açılan iş yerlərinin sayı 1800-ə çatdırılacaq, 77 mln. manat özəl investisiya yatırılacaqdır.

Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin digər regionlarında da sənaye zonalarının təşkili istiqamətində araşdırmalar aparılır. Bu il Naxçıvan Muxtar Respublikasında Şərur Sənaye Məhəlləsinin yaradılmasına başlanılacaq.

Şahin Mustafayev sənaye zonalarına yeni rezidentlərin cəlb olunması üçün təbliğat işlərinin, yeni sənaye parkları və məhəllələrinin yaradılması istiqamətində işlərin sürətləndirilməsi barədə nazirliyin aidiyyəti strukturlarına müvafiq tapşırıqlar verib.

Ənənəvi sənaye sahələrindən olan xalçaçılığın inkişafı məqsədilə indiyədək 20 rayonda xalça fabriki açılıb. Bu il daha 11 xalça fabriki istifadəyə veriləcəkdir.

5 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin tikintisi davam edir və 2019-cu ildə fəaliyyətə başlayacaqdır. Sumqayıt Kimya Sənaye Parkında Yunəyirici Boyaq Fabrikinin tikintisi aparılır.

Prezident İlham Əliyevin yeni həyat bəxş etdiyi və “Böyük Qayıdış”ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə yem emalı müəssisəsi tikilib, türk iş adamları ilə birlikdə kiçik istixanalar və arıçılıq təsərrüfatları yaradılıb. Arıçılıq təsərrüfatları lazımi avadanlıqlarla, istixanalar damcılı suvarma sistemləri ilə, avadanlıq, toxum, dərman preparatları və s. ilə təmin edilib. Bu layihələrin reallaşdırılması nəticəsində istehsal olunan məhsullar “Cocuq Mərcanlı” brendi ilə satışa çıxarılır. Hazırda ümumi sahəsi 750 $m^2$ olan suvenir istehsalı müəssisəsinin tikintisi işləri davam etdirilir. Cocuq Mərcanlı kəndində ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən bal emalı mobil emalatxanasının yaradılması işləri həyata keçirilir.

### Ötən il 9,3 milyon ton tranzit yük daşınıb

Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Kollegiya iclasında qeyd edilib ki, əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də ölkənin nəqliyyat-tranzit imkanlarının təşviqi tədbirləri davam etdirilib. İndiyədək Türkmənistan, Gürcüstan, İran, Türkiyə və Çində Transxəzər beynəlxalq nəqliyyat dəhlizinin imkanlarının təbliği ilə bağlı tədbirlər keçirilib.

2018-ci ilin may ayında dövlət başçısının iştirakı ilə açılmış Bakı Beynəlxalq Dəniz Ticarət Limanı regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsində və tranzit imkanlarının genişləndirilməsində xüsusi əhəmiyyət kəsb edir. Hazırda liman ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması işləri davam etdirilir.

2018-ci ildə ölkə ərazisindən 9,3 mln. ton tranzit yük daşınıb. Ötən il “Şimal-Cənub nəqliyyat dəhlizi” ilə daşınan yüklərin həcmində artım müşahidə olunub, 158 min ton yük daşınıb. Cənub-Qərb dəhlizi üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alinib.

### 3 ildə sahibkarlara 6766 lisenziya verilib

Kollegiya iclasında vurğulanıb ki, Prezident İlham Əliyevin dərin islahatlar ili kimi qiymətləndirdiyi 2018-ci ildə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər, islahatlar davam etdirilib.

2018-ci ildə sahibkarlara 2048 lisenziya verilib ki, bunun da 1384-nü yeni, 664-nü isə müddətsiz lisenziyalarla əvəzetmə təşkil edir. Ümumilikdə isə İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzləri vasitəsilə 2 noyabr 2015-ci il tarixindən 1 yanvar 2019-cu il tarixinədək sahibkarlara 6766 lisenziya verilib. Ötən ilin martında “Lisenziyalar və icazələr” portalı yaradılıb və portal vasitəsilə artıq 587 elektron lisenziya verilib.

2018-ci ildə “Qrant haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq İqtisadiyyat Nazirliyi tərəfindən kommersiya qurumlarının və publik hüquqi şəxslərin 17 qrant müqaviləsi qeydiyyata alınıb.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunun tətbiqindən sonrakı 38 ay ərzində vergi yoxlamaları istisna olmaqla, cəmi 640, 2018-ci il ərzində isə 483 yoxlama keçirilib. Müqayisə üçün qeyd edək ki, yoxlamaların dayandırıldığı 2015-ci ilin 1 noyabrından əvvəlki 38 ay ərzində sahibkarlıq subyektlərində 185 mindən çox yoxlama keçirilib.

İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu qeyd edən Şahin Mustafayev bildirib ki, indiyədək sahibkarlara investisiya dəyəri 2,8 mlrd. manatdan çox olan layihələr üzrə 333 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 2188 təsdiqedici sənəd verilib. Layihələrin 41%-i kənd təsərrüfatı, 59%-i isə sənaye sahələrini əhatə edir. Bu layihələrin reallaşması nəticəsində 22 minə yaxın iş yerinin açılacağı gözlənilir.

2018-ci ildə isə sahibkarlara investisiya dəyəri 801 mln. manat olan layihələr üzrə 107 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 1058 təsdiqedici sənəd təqdim edilib.

Ötən il Bakıda və ölkə regionlarında 2,5 mindən çox dinləyicinin iştirakı ilə biznes planlarının və investisiya layihələrinin hazırlanması, marketinq, menecment, brendləşdirmə, ekoloji təmiz kənd təsərrüfatının inkişafı və s. mövzularda 88 tədbir keçirilib, məsləhət xidmətləri göstərilib.

### Kreditlərin 64,3 faizi regionların payına düşür

İqtisadiyyat Nazirliyi tərəfindən vətəndaşlara 54 elektron xidmət göstərilir. Nazirlik tərəfindən göstərilən elektron xidmətlərin böyük əksəriyyəti artıq “E-hökumət” portalına (www.e-gov.az) inteqrasiya olunub. Hazırda digər elektron xidmətlərin “E-hökumət” portalına inteqrasiya olunması istiqamətində tədbirlər görülür.

Kollegiya iclasında özəl sektorda həyata keçirilən layihələrə dövlət dəstəyi tədbirlərinin gedişi də müzakirə olunub. Bildirilib ki, özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması üçün hər il olduğu kimi, ötən ildə də sahibkarlığın güzəştli kreditləşdirilməsi davam etdirilib. 2018-ci ildə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarların maarifləndirilməsi, nümunəvi investisiya layihələrinin təqdim olunması, güzəştli kreditlərin verilməsi ilə bağlı 600-dən çox sahibkarın iştirakı ilə 21 işgüzar forum keçirilib, müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 617,8 mln. manat olan 999 investisiya layihəsinin maliyyələşdirilməsinə 160,2 mln. manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 9000-dək yeni iş yerinin açılmasına imkan yaradır.

Verilmiş kreditlərin 64,3%-i respublikanın regionlarının, 35,7%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Güzəştli kreditlərin 70,3%-i aqrar sektorun, 29,7%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına yönəldilib.

Son illər fond tərəfindən maliyyələşdirilən 35 istehsal, emal və infrastruktur müəssisəsi 2018-ci ildə fəaliyyətə başlayıb. 2019-cu ildə daha 39 müəssisənin açılması gözlənilir. Ümumilikdə isə, indiyədək layihələrinin ümumi dəyəri 5 mlrd. manatdan çox olan 36 minə yaxın sahibkara 2,3 mlrd. manatadək güzəştli kredit verilib.

### Daha 10 aqropark istifadəyə veriləcək

Şahin Mustafayev dövlət başçısının tapşırığına uyğun olaraq, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması və mövcud aqroparkların genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini diqqətə çatdırıb. Bildirilib ki, hazırda dövlətin dəstəyi ilə ölkənin 33 rayonu üzrə 257 min hektar ərazidə dəyəri 2,2 mlrd. manat olan 51 aqropark və iri fermer təsərrüfatının, o cümlədən 15 rayonda 39,6 min hektar ərazidə 17 müasir cins heyvandarlıq kompleksinin və 29 rayonda 217,4 min hektar ərazidə 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması təşviq olunur. Artıq 17 aqropark fəaliyyət göstərir. 2019-cu ildə isə daha 10 aqroparkın istifadəyə verilməsi nəzərdə tutulur.

2018-ci ildə dövlət dəstəyi hesabına xarici ölkələrə 11 ixrac missiyası təşkil edilib, Azərbaycan şirkətləri xarici ölkələrdə təşkil olunmuş 11 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak ediblər. Bu tədbirlər çərçivəsində ABŞ, Almaniya, BƏƏ, Çexiya, Qətər və digər ölkələrə Azərbaycan istehsalı olan meyvə-tərəvəz, nar şirəsi, şərab, ət məhsulları, quru süd, fındıq, qənnadı məhsulları, bal, çay, həmçinin Naftalan nefti, tikinti materialları, mebel və digər məhsulların ixracına dair 50-dən çox müqavilə imzalanıb və razılaşma əldə olunub. Bundan başqa, “Buta Airways” təyyarələrində ixracı təşviq edən reklam nümayiş olunub, təyyarələrdə təklif olunan Azərbaycan məhsullarının siyahısı genişləndirilib. “SOCAR GeorgiaPetroleum” şirkətinin yanacaqdoldurma məntəqələrində stendlər yerləşdirilib.

2019-cu ildə 19 xarici ölkəyə 25 ixrac missiyası həyata keçiriləcək, 11 beynəlxalq sərgidə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə 2018-ci ildə xarici ölkələrdə 5 “Azərbaycan Ticarət Evi” açılıb. Bu il yanvarın 15-də BƏƏ-nin Dubay şəhərində açılan “Azərbaycan Ticarət Evi” ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur. Bu il Rusiyada, BƏƏ-nin Abu-Dabi şəhərində və Qazaxıstanda “Azərbaycan Ticarət Evi”nin açılması nəzərdə tutulur.

2018-ci ildə Çində 2 “Azərbaycan Şərab Evi” açılıb. Xarici ölkələrdə Azərbaycanın şərab evlərinin yaradılması prosesi bu ildə də davam etdiriləcəkdir.

Görülmüş tədbirlər nəticəsində 2018-ci ildə qeyri-neft ixracı 9,8%, o cümlədən kənd təsərrüfatı və emalı məhsullarının ixracı 13,8%, sənaye məhsullarının ixracı 6,2%, xarici ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin sayı 56,2% artıb. Ötən il Azərbaycandan 3088 çeşiddə məhsul ixrac edilib.

Kollegiya iclasında qeyd edilib ki, Azərbaycanın turizm potensialı, ölkədəki siyasi sabitlik və təhlükəsizlik turizm sektorunun inkişafı üçün geniş imkanlar açır. Bu imkanların reallaşdırılması üçün dövlət başçısının tapşırığına uyğun olaraq bu sahədə ardıcıl tədbirlər görülür.

Şahin Mustafayev ölkədə aparılan sosial-iqtisadi siyasət istiqamətində Heydər Əliyev Fondunun fəaliyyətinin xüsusi önəmini vurğulayıb. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan sosial layihələr minlərlə insanın həyat şəraitinin yaxşılaşması üçün yeni imkanlar açır. Heydər Əliyev Fondunun digər layihələri kimi, “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramının uğurlu icrası sosial sahənin inkişafına mühüm töhfədir.

### 8 rayonda “KOB Dostu” fəaliyyət göstərir

İclasda İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin hesabatı da dinlənilib. Agentliyin idarə heyətinin sədri Orxan Məmmədov məlumat verib ki, 2018-ci ildə kiçik və orta biznesin inkişafının qanunverici bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra tədbirlər görülüb, KOB sektorunda yeni dəstək modellərinin tətbiqinin stimullaşdırılması məqsədilə Vergilər Məcəlləsinə dəyişikliklər edilib, mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları təsdiq olunub, KOB-ların kommunal xidmətlərə qoşulması prosedurları, tikintiyə icazə və tikinti obyektinin istismarına icazə qaydaları sadələşdirilib.

Artıq 8 rayonda - Masallı, Siyəzən-Şabran, Xaçmaz, Gəncə, Yevlax, Quba və Qusarda “KOB Dostu” fəaliyyət göstərir. Fevral ayında Sumqayıt, Abşeron və Qəbələdə KOB dostları fəaliyyətə başlayacaq. İndiyədək KOB dostları tərəfindən sahibkarlıq subyektləri ilə 120-yə yaxın görüş keçirilib, təkliflər dinlənilib və suallar cavablandırılıb.

Hazırda agentliyin digər layihəsi olan KOB evlərinin yaradılması üzrə işlər aparılır. KOB evlərinin yaradılması ilə KOB-lara göstəriləcək xidmətlərin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənəcəkdir. Ümumilikdə KOB evlərində sahibkarlara vahid məkan prinsipi əsasında 34 dövlət qurumunun 110-a yaxın xidməti göstəriləcək. Eyni zamanda, elektron formada vahid platforma üzərindən xidmətlərin göstərilməsini təmin edəcək “e-KOB evi” portalının yaradılması istiqamətində işlər davam etdirilir.

Kollegiyanın sədri Şahin Mustafayev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının çıxışından irəli gələn və İqtisadiyyat Nazirliyi qarşısında qoyulmuş vəzifələrin vaxtında və yüksək səviyyədə icrası üçün nazirliyin struktur bölmələrinə konkret tapşırıqlar verib, bu vəzifələrin icrası ilə bağlı tədbirlər planının hazırlanması qərara alınıb. İclasda İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2019-cu il üçün iş planı təsdiq olunub, cari məsələlər müzakirə edilib.

Kollegiya iclasında həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunmuş nazirlik əməkdaşlarına medallar təqdim edilib.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Gizli iqtisadiyyatın aradan qaldırılması istiqamətində ciddi və təxirəsalınmaz tədbirlər görülür

## *Mikayıl CABBAROV:* “Vergi orqanlarının məqsədi sahibkarların leqal şərtlərlə rahat işləmələrini təmin etməkdir”




Yanvarın 22-də Vergilər Nazirliyində ticarət fəaliyyəti ilə məşğul olan aparıcı şirkətlərin nümayəndələri ilə görüş keçirilib. Görüşdə Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, ticarət sektoruna dair qanunvericilikdə təsbit edilmiş yeni tələblər, vergi uçotunun şəffaflaşdırılması və mal dövriyyəsinin sənədləşdirilməsi, dövriyyələrin və əmək münasibətlərinin leqallaşması ilə bağlı məsələlər müzakirə edilib.

AZƏRTAC bildirir ki, vergilər naziri Mikayıl Cabbarov vergi sistemində aparılan islahatlar barədə məlumat verib. Bildirib ki, nazirlik vergi orqanları ilə vergiödəyiciləri arasında şəffaf münasibətlərin qurulması ilə bağlı açıq siyasət həyata keçirir. O, gizli iqtisadiyyatda fəaliyyət göstərməyin düzgün və davamlı yol olmadığını, “ikili” hesabatlılığın təkcə vergitutma baxımından deyil, həm də müəssisələrin hesabatlılığı, kapitallaşması, investisiya cəlb etməsi və bank resurslarına çıxışı baxımından da çətinliklər və məhdudiyyətlərə səbəb olduğunu diqqətə çatdırıb. Bu praktikaların və davranışların, o cümlədən əmək münasibətlərinin rəsmiləşdirilməməsi, gəlirlərin gizlədilməsi, əməkhaqlarının reallıqda olduğundan aşağı göstərilməsinin təkcə dövlət üçün deyil, vətəndaşların sosial hüquqları baxımından ciddi çətinliklər yaratdığını qeyd edib.

Nazir ticarət sektorunun ÜDM-in formalaşmasında yüksək xüsusi çəkiyə malik olduğunu qeyd edib. Bildirib ki, gizli iqtisadiyyatın elementlərinə daha çox rast gəlinən sahələrdən biri də məhz bu sahədir.

Mal dövriyyələrinin sənədləşməsi və mühasibatlığın düzgün aparılmasında mövcud olan ciddi nöqsanların aradan qaldırılmasının vacibliyini vurğulayan M.Cabbarov vergi orqanlarının məqsədinin sanksiyaların tətbiqi deyil, dövriyyələrin leqallaşması, hamının bərabər, leqal şərtlər əsasında işləməsi olduğunu bildirib. Vergi qanunvericiliyində 2019-cu ildən qüvvəyə minmiş dəyişikliklərin buna əyani misal olduğunu deyən nazir ilk dəfə qanun pozuntusu aşkarlanan zaman xəbərdarlıq mexanizminin tətbiq ediləcəyini, vəsaitlərin bank hesablarından silinməsinin onların dondurulması ilə əvəzlənəcəyini də diqqətə çatdırıb.

Nazir vergi öhdəliyini azaltmaq üçün ən müxtəlif səviyyələrdə uzun illər ərzində formalaşmış olan bəzi düzgün olmayan praktikalardan imtina etməyi, onların biznes üçün fayda gətirmək əvəzinə sanksiyalarla üzləşmə ehtimalı yaratdığını diqqətə çatdıraraq 2018-ci ildə bir sıra sahələrdə problemli məsələlərin üzərinə gedildiyini, gizli iqtisadiyyatda fəaliyyət göstərən sahələrin dövriyyələrinin leqallaşdırıldığını, həmin sektorlar üzrə bazarda qaçaq malın satış payının dəfələrlə aşağı düşdüyünü və eyni yanaşmanın digər sektorlarda da tətbiq ediləcəyini bildirib.

Qeyd olunub ki, son iki ildə ticarət sektorunda yayındırılan dövriyyənin həcminin böyük rəqəmlərlə ölçülməsinə baxmayaraq, bu sahədə çalışan vergiödəyicilərinin təqdim etdiyi bəyannamələrdə əməkhaqlarının aşağı səviyyədə göstərilməsi sual doğurmaya bilməz. Bu halları vergidən yayınma risklərinin aşkar əlamətlərinin mövcudluğu kimi dəyərləndirən nazir bunun yolverilməz olduğunu qeyd edib.

M.Cabbarov Azərbaycan iqtisadiyyatının qüdrətinin güclü sahibkarlardan asılı olduğunu, vergi orqanlarının məqsədinin sahibkarların biznes fəaliyyəti üçün əngəl yaratmaq deyil, əksinə, onların fəaliyyətini stimullaşdırmaqdan, leqal şərtlərlə rahat işləmələrini təmin etməkdən ibarət olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin gizli iqtisadiyyatın aradan qaldırılması istiqamətində ciddi və təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı dövlət qurumları qarşısında mühüm vəzifələr qoyduğunu bildirən nazir sağlam və hamı üçün eyni rəqabətlilik mühitinin formalaşdırılmasının təkcə dövlətin deyil, hər bir sahibkarın da marağına uyğun olduğunu qeyd edib. Təklif olunan şəffaf münasibətləri qəbul etmək istəməyən, əvvəlki kimi qeyri-leqal fəaliyyət göstərməyə üstünlük verənlərə qarşı isə vergi orqanları fərqli yanaşma göstərəcək.

Tədbirdə iştirak edən vergiödəyicilərinin vergi qanunvericiliyində aparılmış dəyişikliklərlə bağlı çoxsaylı sualları cavablandırılıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 22-də Siyəzən şəhərində şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ünvanlayıblar.

Dövlət komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara isə müvafiq qurumlara müraciət etmələri tövsiyə olunub.




YADDAŞIN MÜHAKİMƏSİ

# Acı həqiqətlər

**1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət və faciə şəklində bütün respublikanı bürüyən repressiya qurbanlarının sayı alimlərin araşdırmalarında dəqiq göstərilmir. Lakin məlum olan həqiqət odur ki, güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arxasında min bir işgəncə ilə qətlə yetirilənlərin böyük əksəriyyəti sovet rejimi, kommunist ideologiyası və mövcud quruluşa qarşı real və ciddi təhlükə yarada biləcək güc və zəka sahibləri idi.**



Azərbaycanda sosializmin təşəkkülü, fəhlə-kəndli hökumətinin qərarlaşması daha ağrılı keçmişdir. 1920-ci ilin aprelində hakimiyyət qan tökülmədən əldə edilsə də, tezliklə bolşeviklərin müstəmləkəçilik siyasəti Gəncə, Şuşa, Zaqatala, Qarabağ, Lənkəran və digər uyezdlərdə çoxlu üsyana səbəb olmuşdu.

1920-1924-cü illərdə 54 genişmiqyaslı silahlı üsyan baş vermişdir. Üsyançıları və onları dəstəkləyən mülki əhalini amansızcasına, məhkəməsiz, istintaqsız yerindəcə edam etmişdilər. Tədqiqatçıların yazdıqlarına görə, ümumilikdə 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda "qırmızı terror"un 48 min qurbanı olmuşdur. Həmin insanların təxminən dörddəbiri ən iri Gəncə üsyanı (1920-ci il 26-31 may) zamanı öldürülmüşdür.

Gəncə üsyanından sonra onun iştirakçılarından olan 23 zabit, o cümlədən 6 general Nargin adasına gətirilmişdir. Bolşeviklərin əsir götürdüyü general-mayor Feyzulla Mirzəşahzadə Qacar Bakıya göndərilmiş və bu adada güllələnmişdir.

1920-ci il iyunun 6-da Gəncə yaxınlığında 79 yüksək rütbəli azərbaycanlı zabit həbs edilmişdir. XI ordunun xüsusi şöbəsinin rəisi Pankratovun əmri ilə onlar da Nargin adasında qətlə yetirilmişdilər. Yüksək rütbəli zabitlər arasında Gəncənin general qubernatoru Xudadat bəy Rəfibəyov, general Əbdülhəmid bəy Qaytabaşı, podpolkovnik İsmayıl xan Ziyadxanov, general İbrahim ağa Usubov, general Əmir Kazım Qacar, Bakı şəhər Polis İdarəsinin rəisi Quda Qudiyev, milyonçu Murtuza Muxtarov, general Məhəmməd Mirzə Qacar, general-leytenant Məmməd bəy Sulkeviç, general Həbib bəy Səlimov, İsgəndər bəy Seyfulin və digərləri var idi.

Generallar Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov Nəriman Nərimanovun zaminliyi ilə sağ qalmışdılar.

Sonradan bədnam "kollektivləşmə" dövrü start götürmüşdü. Ortabab kəndlilər qolçomaq adı ilə bir sinif kimi "ləğv" edilməyə başlanmışdı. Sovet cəza orqanları tərəfindən onların bütün mülkiyyətlərinin əlindən alınması kəndlilərin kütləvi iğtişaşlarına səbəb oldu. Bu iğtişaş və çıxışları "banditizim" adlandıran siyasi orqanlar həmin narazılıqları silah gücünə çox amansızlıqla yatırdılar.

Bolşeviklər sovet hakimiyyətinin ilk günlərində nüfuzlu müsəlman ruhanilərini də ağır işgəncələr, ən amansız üsullarla aradan götürməyə başladılar. Quranı-Kərimi ilk dəfə Azərbaycan dilinə tərcümə edənlərdən biri, Bakı qazisi Mir Məhəmməd Kərim ağa Nargin adasında güllələndi. Bibiheybət məscidi yerlə-yeksan edildi.

### S.M.Kirovun ölümü bəhanə oldu

1934-cü il dekabrın 1-də Leninqrad Vilayət Partiya Komitəsinin katibi S.M.Kirov qəfildən öldürülür. Bu hadisə SSRİ-də total repressiyaların başlanmasına bəhanə olur. Bir neçə saatdan sonra Siyasi Büronun təcili yığıncağı çağırılır, SSRİ MİK-in "1 dekabr qanunu" adını almış qərarı hazırlanır.

Əslində, kütləvi repressiyalar üçün baza ilin əvvəlindən hazırlanmışdı. 1934-cü il yanvarın 26-da partiyanın XVII qurultayında Stalin tərəfindən antisovet qüvvələrə qarşı mübarizənin konsepsiyası bəyan edilmişdir. Bu qurultayda Lavrenti Beriyanın çıxışı yaddaqalan olmuş və alqışlarla qarşılanmışdır. Sonrakı illərdə bu qurultayın 1966 iştirakçısından 1108-i, o cümlədən MK-nın 139 üzvündən 98-i güllələnmişdir.

1936-cı il avqustun 3-də Azərbaycan KP MK-ya ÜİK (b)P MK-nın qapalı məktubu daxil olur. Elə həmin gün Mircəfər Bağırov təcili yığıncaq çağırır. Qəbul olunan qərarda Azərbaycanda, xüsusilə Bakıda əksinqilabi terrorçu qrupların fəaliyyəti haqqında konkret material hazırlamaq Anastas Akopova tapşırılır (A.Akopov Bakı Komitəsinin ikinci katibi idi). Bu ərəfədə Beriyanın "Pravda" qəzetində böyük bir məqaləsi çap olunur. Məqalədə Cənubi Qafqazda, o cümlədən Bakıda və Kirovabadda sosializmin, xalqın düşmənlərinin - əksinqilabçıların, trotskiçi-zinovyevçi qruplarının ifşa edilməsi haqqında məlumatlar verilir. Bundan sonra Bağırov, Akopov, Sumbatov-Topuridze Yemelyanov, Markaryan, Qriqoryan, Borşev və başqalarının cəza maşını işə düşür.

### Zor dünyanı darmadağın edir

1936-cı ildən etibarən Stalin rejimi azərbaycanlı ziyalılara qarşı demək olar ki, total hücuma başlayır. 1937-ci ildə bu proses özünün kulminasiya nöqtəsinə çatır və 1938-1939-cu illərdə səngimək bilmədən sürətlə davam edir. Şübhəsiz ki, sonrakı illərdə də repressiyalar ara verməyəcəkdi, lakin müharibənin astanada olması vəziyyəti bir qədər dəyişir. Cəmi bir neçə il çəkən bu müddət ərzində on minlərlə ziyalımız məhv edilir və qəribə görünsə də, onların hamısı "imperialistlərlə əlaqə"də, "vətənə xəyanət"də, "türkçülük"də, "islamçılıq"da ittiham olunurdu. O zaman xüsusilə azərbaycanlı ziyalıların bir təbəqə olaraq "ləğvi" stalinizmin başlıca məqsədlərindən birinə çevrilmişdir. 1937-ci il Azərbaycanda repressiyaların tüğyan etdiyi tarix olmuşdur.

1937-ci il iyulun 30-da XDİK-in "Keçmiş qolçomaqların, cinayətkarların və başqa antisovet elementlərin repressiya olunması üzrə əməliyyat haqqında" və 1937-ci il avqustun 15-də "Vətən xainlərinin arvadlarının və uşaqlarının repressiya olunması üzrə əməliyyatlar haqqında" operativ əmrlər müzakirə edilir. Hər iki əmr xalq daxili işlər komissarı N.Yejov tərəfindən hazırlanır. Bu, "böyük terror" dövrünün ən amansız aksiyası idi. Sənəddə repressiya olunmalı kontingent çox dəqiq müəyyən edilmiş və iki kateqoriyaya ayrılmışdı. Birinci kateqoriyaya təcili həbs olunaraq güllələnənlər, ikinci kateqoriyaya isə 8 ildən 10 ilə qədər müddətə düşərgələrdə və ya həbsxanalarda azadlıqdan məhrum edilənlər aid idi. Hər bir vilayət, diyar və respublika üçün bu iki kateqoriyadan repressiya olunanların sayı limit üzrə müəyyənləşdirilmişdir. Azərbaycan üçün həmin limitdə birinci kateqoriyaya aid edilənlərin sayı 1500, ikinci kateqoriyaya aid edilənlərin sayı isə 3 min 750 nəfər idi. Ümumilikdə SSRİ üzrə 259 min 450 nəfərin həbsi nəzərdə tutulmuşdur. Bunlardan 72 min 950 nəfər güllələnməli idi. Əmr yerli rəhbərlərə Moskvadan əlavə limitlər almaq hüququ da verirdi. Çox qəribə idi... İnsanlar limit üzrə güllələnirdi. Günahları oldu-olmadı... Göründüyü kimi, onların sayı limiti keçmişdi, hətta on min, yüz min dəfələrlə çox olmuşdur. İnsan həyatına qəsd görünməmiş amansızlıqla aparılırdı.

İlkin dövrlərdə həbslər XDİK-in əvvəlcədən tərtib olunmuş kartotekaları əsasında aparılırdı. Sonra isə istintaq vasitəsilə əldə edilmiş "ifadələrə" üstünlük verilməyə başlandı. Müstəntiqlər donoslardan yalnız köməkçi material kimi istifadə edirdilər. Xalqın "sayıqlığı" isə o dərəcəyə çatmışdı ki, hamı hər yerdə, hətta öz ailəsində belə düşmən axtarışına çıxmışdı.

Kütləvi repressiyaların və sürgünlərin geniş vüsət aldığı bu dövrdə Ermənistanda yaşayan 50 min nəfərdən artıq azərbaycanlı əhali ailəliklə Qazaxıstan çöllərinə köçürülmüşdü. Sonradan onların xeyli hissəsi həlak olmuşdu. Cəza müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin isə əksəriyyətini Ermənistana buraxmamışdılar və böyük məhrumiyyətlər bahasına geri qayıdanların bir çoxu yenidən deportasiyaya məruz qalmışdır.

1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından sürgün edilmişdir.

* * *

İnsan cəmiyyətini sarsıdıb silkələyən, onun tarixi yaddaşında qanlı iz qoyan, bir tərəfdən şəxsiyyətə hədsiz pərəstişi təbliğ, digər tərəfdən isə şəxsiyyətlərin alçaldılmasını adi həyat norması kimi qəbul edən sovet totalitarizminin 30-cu illərdə həqiqi siyasi mahiyyəti belə qanlı idi. Milyonlarla insan qorxu kabusunun təsiri altında yaşayırdı. Leninin "kommunizm" adlanan mücərrəd illüziyaları nə vaxtsa xalqlara "firavanlıq" gətirməli idi və buna görə də minlərlə, yüz minlərlə ziyalı həbsxanalarda çürüyür, güllələnmə ilə "mükafatlandırılırdı". Onlar nə qurmaq və necə qurmaq istəyirdilərsə də, hər halda bu qurulmaqda olan "nəisələr" xalqdan çox-çox uzaq bir sistemin, yabançı bir qurumun planlarını cızırdı. Nəticədə nələr baş verdi?..

Sovet imperiyasının 30-cu illərdə tətbiq etdiyi siyasi mübarizə, idarəetmə metodları bəşəriyyətin minilliklər ərzində formalaşmış dəyərlər sisteminə zərbə oldu. Həmin illərdə 80 mindən çox azərbaycanlı mahiyyəti hələ də məlum olmayan səbəblərdən repressiya maşınının hədəfinə tuş gəldi. Azərbaycanın düşünən beyinləri, görən gözləri, ölkənin tarixində müstəsna rol oynamış, yaxud oynaya biləcək ziyalı təbəqəsi bir neçə dəqiqə sürən məhkəmə proseslərində güllələnməyə məhkum edildi. Bu prosesin başında isə Sumbatov-Topuridze, Borşev, Gerasimov, Qriqoryan, Sinman, Ohanesyan, Markaryan, Avanesyan, Qalstyan kimi cinayətkarlar dayanırdı.

Amansız rejim, bu rejimin qəddar və qanlı qanunlarını yerinə yetirənlər dünya durduqca, tarix yaşadıqca nəsillərin mühakiməsindən yaxa qurtara bilməyəcəklər.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

> **"Qırmızı terror"**
>
> - 17 milyon insan cəzasını QULAQ düşərgələrində çəkib və bu insanların ondabiri həmin düşərgələrdə dünyasını dəyişib.
> - Repressiya olunanlardan 7 milyon insanın mülkü müsadirə edilib, özləri isə sürgünə göndərilib.
> - 1989-cu ildə SSRİ DTK 1921-1953-cü illərdə siyasi repressiyaya məruz qalanların 681 min 692 nəfərinin 1937-1938-ci illərdə repressiya olunduğunu qeyd edib.
> - İkinci Dünya müharibəsi illərində 153 min insan hərbi tribunalların qərarı əsasında güllələnib. Daha 115 min adam istintaq dövründə işgəncələrə dözməyərək həlak olub.

TARİXİN İZİ İLƏ



# Sirli "ölüm düşərgəsi" - NARGİN ADASI

**Xəzər dənizində, daha doğrusu, Abşeron yarımadasının cənub hissəsindəki Böyük Zirə Bakı körfəzində, sahil xəttindən 10,5 km məsafədə yerləşən Böyük Zirə adası vaxtilə Nargin adlandırılıb. Onun adı Azərbaycan dilində "böyük" və ərəb mənşəli "cəzirə" (ada) sözündən yaranıb.**

XVII əsrdə ruslar, xüsusilə də kazaklar Bakı arxipelaqına aid olan adaların əksəriyyətinin adlarını dəyişiblər. Ona görə bu adaya da 1719-cu ildə Rusiya İmperatoru I Pyotr dövründə Nargin adı verilib. Bu ad ona Fin körfəzində yerləşən Nargin (estonca, dar boğaz) adasına bənzədiyi üçün verilib. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra onun ilk adı da özünə qaytarılaraq, yenidən Böyük Zirə adlandırılıb.

Burada məşhur mayak da var ki, 1884-cü ildə Abşeron arxipelaqında gəmilərə yol göstərmək məqsədilə fəaliyyətə başlayıb. Mayak gecə Bakı buxtasına daxil olan gəmilərin yolunu işıqlandırır və dənizçilər üçün əsas bələdçi rolunu oynayırdı.

İkinci Dünya müharibəsinin əvvəlində Böyük Zirə adasında yerləşən mayak alman aviasiyasının diqqətini çəkməmək üçün partladılıb. Sovetlər dönəmində isə adada hərbi hava qüvvələrindən müdafiə bazası yerləşirdi və bura ittifaqın mühüm strateji nöqtəsi sayılırdı.

* * *

1915-ci ildən 1940-cı ilədək əvvəlcə çar Rusiyası, sonra isə sovet hakimiyyəti Nargində Qafqaz cəbhəsindən əsir götürülən on minlərlə Osmanlı İmperiyası əsirlərini və azərbaycanlıları qətlə yetirib. Ada Birinci Dünya müharibəsinə qədər çar Rusiyasının həbs düşərgəsi olub. 1905-ci ildə burada həbs düşərgələri salınıb. Çar Rusiyası xəyanət edən, cinayət törədən əsgərini ən ağır cəzaya məhkum edəndə məhz buraya sürgün edirdi. Taxtadan düzəldilmiş baraklara işıq damdan açılmış pəncərələrdən düşürdü. Bir neçə barakda taxtlar olsa da, məhbusların əksəriyyəti quru torpaq üstündə yatırdılar. Qış aylarında baraklar qızdırılmır, su isə çatışmırdı...

Nəriman Nərimanov Bakı Şəhər Dumasına üzv seçildikdən sonra həmfikirləri ilə Dumada komissiya yaradıb və Böyük Zirə adasına göndərilməsi məsələsini tələb edib. Dumanın "Təhqiqat komissiyası"nın üzvləri - Nəriman Nərimanov, Əbdülbağı Məmmədov, Ağaməhəmməd İbrahimov, Almaniya, Danimarka və İsveçrə səfirliklərinin əməkdaşları Böyük Zirə adasına gedib, orada əsirlərin vəziyyətindən və saxlanma şəraitindən dəhşətə gəliblər. Adada 700-ə qədər səksən yaşında qocanın, 2 yaşından 15 yaşına qədər uşaqların olduğunu və hamısının Qafqaz cəbhəsindən gətirildiklərini öyrənən N.Nərimanov böyük ürək ağrısı ilə yazırdı: "Bura bir cəzirə deyil, məzardır. Elə bir məzardır ki, min nəfərə qədər adam qıraqda oturub ölmək üçün öz növbəsini gözləyir..."







### "Göz yaşı tökdürən cəzirə"

Nəriman Nərimanovun "Hümmət" qəzetinin 28 noyabr 1917-ci il tarixli sayında dərc edilən "Göz yaşı tökdürən cəzirə" məqaləsindən oxuyuruq: "...Kaş, mən bu cəzirəyə getməyəydim. Kaş, bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş, "əfəndim, su!", "əfəndim, yemək!", "əfəndim, paltar!" sözlərini eşitməyəydim. Kaş, çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş, xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim! Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır..."

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Nargin hərbi düşərgəsində komissiyanın müəyyən etdiyi 300 xəstə - türk, alman, avstriyalı hərbi əsiri şəhərdə 16-cı lazaretdə yerləşdirib. Daha 130 nəfər körpə Bakıya gətirilib, Çəmbərəkəndin qarşısındakı mülkdə yerləşdirilib.

1917-ci ildə cəbhədə türk əsgər və zabitlərinə kömək göstərilməsində din xadimi Ağa Əlizadənin müstəsna xidmətləri olub. Məhz onun xalqa müraciətindən sonra insanlar Təzəpir məscidinə gələrək türk əsgərlərinə yardım toplamağa başlayıblar. Bunun nəticəsində bir həftə ərzində əsirlərə o qədər yardım toplanıb ki, ərzaq, dərman və paltarları Böyük Zirə adasına daşımaq üçün bir ay vaxt lazım olub.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətindən sonrakı fəalları, həm də Stalin repressiyası qurbanlarını Nargin və Bulla adalarında güllələmiş, bəzilərinin cəsədlərini oradan Xəzər dənizinə atmışdılar.

### "Türk qəbiristanlığı"nın susqunluğu və susuzluğu

Azərbaycanın tarixi ərazilərini havadarlarının dəstəyi ilə işğal edən daşnakların qanlı əl izlərini Xəzərin suları da yuya bilmədi. Buna Nargin adası da şahiddir. Adada türk tarixi baxımından, eləcə də "erməni soyqırımı"nın ifşası ilə bağlı son dərəcə vacib olan şəhidlərin sümükləri tapılıb. "Cəhənnəm adası" və ya "İlan adası" kimi tanınan bu "gözdən uzaq, könüldən iraq" yerdə Birinci Dünya müharibəsi zamanı imperiya cəlladlarının girov götürdükləri türk əsgərləri hər cür işgəncələrə məruz qalaraq vəhşicəsinə öldürülüb. 1914-1915-ci illərdə Sarıqamış döyüşlərində Anadolu kəndlərindən əsir düşən, zorla girov götürülən və içərilərində üç yaşınadək qız uşaqlarından tutmuş, 80 yaşadək yaşlılara qədər türklərin olduğuna dair məlumatlar Rusiyanın müxtəlif arxiv sənədlərində üzə çıxıb. Bu sənədlərdə aclıq, xəstəlik və zəhərli ilanların sancması ilə ölən və ruhi xəstəlik tapıb əldən düşənlərin şəkilləri də var.

Nargin adasında tutulan on minlərlə əsirin bir qismi Azərbaycan türklərinin köməyi ilə oradan qaçıb. "Kardaş komegi" deyə nəsildən-nəslə ötürülən bir çox ürəkparçalayan əhvalat da var. Onların köməyi və dəstəyi ilə ölümdən qaçanlar arasında türk havaçılıq tarixinin ilklərinə imza atan Vecihi Hürkuş da olub. Hava döyüşlərinin birində yaralandıqdan sonra ruslara əsir düşən pilot Xəzər dənizindəki Nargin adasına göndərildikdən sonra Azərbaycan türklərinin köməyi ilə üzərək qaçıb və Ərzuruma qədər piyada gedib.

Zaman-zaman, adı repressiya məruz qalan ada bu gün, sözün əsl mənasında, ziyarətgaha çevrilib. Bu da sirli-sehrli bir adanın tale kitabı... Səhifələrində qan-qadadan savayı nə yazılıb ki...

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

KÜLƏK YARADANLAR TUFANA DÜŞDÜLƏR

# 700 min insanı qətlə yetirən "NKVD" başçısı



**Cəmi iki il SSRİ Xalq Daxili İşlər Komissarlığına başçılıq edən Nikolay Yejov qəddarlığı və cəlladlığı ilə tarixdə amansız iz qoyub. 700 minə yaxın insanın ən ağır cəzalara məhkum olunmasında birbaşa iştirakı olub. Ona görə də bu insanın fəaliyyəti "yejovşina" dövrü kimi yadda qalıb.**

Stalinin repressiya maşınını böyük ustalıqla idarə edən Nikolay Yejov həmin dövrdə "dəmir komissar" adı ilə tanınıb. İkiillik ibtidai təhsili olan bu qəddar insan bütün varlığı ilə Stalinə sədaqət nümayiş etdirib. Ardı-arası kəsilməyən repressiyaların, sürgünlərin, güllələnmələrin icrasını həyata keçirib. Yejov o qədər amansız olub ki, ölüm hökmü ilə bağlı sənədlərə imza atmaqla öz cəlladlıq ehtiraslarını söndürə bilməyib, bir çox hallarda cəzaların icrasında şəxsən iştirak edib.

"Böyük rəhbər"in bütün tapşırıqlarını kor-koranə olsa da, canla-başla yerinə yetirən Yejov mövcud dövrdə Stalin üçün sərfəli kadr olub. O, repressiya alətinin funksiyasını daşıyıb. Ölkədə tüğyan edən repressiya dalğasının xalqda böyük narahatlıq yaratdığını Stalin dərk edib və təbii ki, bunun törədə biləcək fəsadlarını da düşünüb. Amma rəhbər üçün çıxış yolu tapmaq çətin olmayıb: "yejovşina dövrü"nə son qoymaq və sonradan onu lənətləmək.

Nikolay Yejov 1939-cu il aprelin 10-da xarici kəşfiyyatla əməkdaşlıq, sovet hakimiyyətinə qarşı gizli silahlı üsyanın hazırlanması ittihamı ilə həbs olunub. Nikita Xruşşov Yejovun həbs olunduğu günü belə xatırlayırdı: "Həmin gün Kremldə idim. Stalin məni mənzilinə şam etməyə dəvət etmişdi. Otaqda bizdən başqa Molotov və bir neçə nəfər də var idi. Yejovdan söhbət düşəndə heç vaxt öz təmkinini pozmayan Stalin möhkəm əsəbiləşdi və dedi ki, bu təhlükəli caninin həbs olunmaq vaxtıdı, elə bu gün... Biz nadir hallarda Stalinin belə əsəbiləşdiyini görmüşdük. Qısa vaxtdan sonra otaqda telefon zəng çaldı. Yejovun həbsi haqqında Stalinə məruzə edildi".

1940-cı il fevralın 1-də Yejovun istintaqı sona çatır. Fevralın 4-də məhkəmənin hökmü icra olunur və Nikolay Yejov güllələnir.

Yejovun dövründə iki il ərzində tutulmuş 200 minədək adam həbsdən buraxılır.

GÜNAHSIZLAR



# 1937-ci ildə 29 min ziyalımız güllələnib

**Repressiya illərində Azərbaycanın 51 rayonundan 31-nin Xalq Daxili İşlər Komissarlığı rayon şöbələrinin rəisi erməni idi. Ona görə də təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" adı ilə 29 min ziyalımız güllələndi.**

1937-1938-ci illərdə Azərbaycanın minlərlə ziyalısı, o cümlədən Hüseyn Cavid, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Əli Nəzmi, Əhməd Cavad və bu kimi görkəmli elm xadimləri xarici dövlətlərə casusluqda və pantürkizmdə günahlandırılaraq repressiya olundular.

Beləliklə, ermənilərin Azərbaycanda apardıqları soyqırımı fəaliyyəti müxtəlif üsul və yollarla hər zaman davam etməkdə idi. Sovetlər birliyi və həmişə rusların əlaltıları olan ermənilər əllərinə keçən bütün vasitələrlə Azərbaycanı türkçülükdən uzaqlaşdırmağa, tariximizi saxtalaşdırmağa çalışırdılar.

Ziyalılarımızı məhv etməklə kifayətlənməyən ermənilər tarixi abidələrimizi də yandırır, bunu hər zaman "qəza" adlandırır və istintaqdan yayınırdılar.

Bəzi mənbələrə əsasən, bu müddətdə 40 000 (qırx min) azərbaycanlı ziyalı repressiya olunub. Ən şiddətlisi isə 1937-1941-ci illər arasında baş verib.

Təkrar

# Dezinfeksiya, dezinseksiya, deratizasiya işlərinin satın alınması ilə əlaqədar "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Dezinfeksiya, dezinseksiya, deratizasiya işlərinin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464 41 11).

**İştirak haqqı 400 manat.**

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat.*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 fevral 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2019-cu il saat 17:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

# Ekoloji monitorinq və laborator analizlərinin aparılması işlərinin satın alınması ilə əlaqədar "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Ekoloji monitorinq və laborator analizlərinin aparılması işlərinin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464 41 11).

**İştirak haqqı 300 manat.**

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat;*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 fevral 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

# Xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması ilə əlaqədar "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

## *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir:**

**Xüsusi texnikalar üçün ehtiyat hissələrin satın alınması.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC-nin Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov (telefon: 012 - 464 41 11).

**İştirak haqqı 400 manat.**

***AZN hesabı***
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
3. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
4. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
6. *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
7. *Dövlət Sosial Müdafiə Fondundan arayış;*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
9. *Müəssisənin təcrübəsi haqqında məlumat;*
10. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının (Mənfəət vergi bəyannaməsi) surəti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 fevral 2019-cu il** tarixə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2019-cu il saat 17:00-a** qədər "Təmiz Şəhər" ASC-nin Xocalı prospekti, 55 ünvanında yerləşən ofisinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası

## *Hədiyyələrin və suvenirlərin satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə*

## *E L A N*

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 07.12.2018-ci il tarixdə keçirilmiş Hədiyyələrin və suvenirlərin kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "EKO TİCARƏT" MMC ƏDV daxil olmaqla 31.945,00 (otuz bir min doqquz yüz qırx beş) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

# "Azercell" daha 25 tələbəni sevindirdi



"Azercell Telekom" MMC tələbələrin fəaliyyətinin dəstəklənməsi üçün hər il keçirilən Tələbə Təqaüd Proqramının 2019-cu il üzrə qaliblərini elan edib. Mərhələli seçim nəticəsində bu il 25 tələbə "Azercell"in təqaüdçüsü adına layiq görülüb. Tələbələri təbrik etmək üçün şirkət tərəfindən yanvar ayının 21-i təşkil edilən görüşdə "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev və Təhsil Nazirliyi SABAH qruplarının tədris işləri üzrə rəhbəri Eldar Qocayev iştirak edib. Vahid Mürsəliyev çıxışı zamanı şirkətin korporativ sosial məsuliyyət siyasətinin daim öz ardıcıllığı, dayanıqlığı və şəffaflığı ilə seçildiyini bildirib. Həmçinin şirkət tərəfindən həyata keçirilən İllik Tələbə Təqaüd və Təcrübə proqramlarının ölkə gənclərinin inkişafına yatırılan investisiyalar olduğunu qeyd edib.

Məlumat üçün bildirək ki, "Azercell" tərəfindən keçirilən Tələbə Təqaüd Proqramında iştirak etmək üçün 1398 tələbə müraciət edib və seçimlər 3 mərhələdən ibarət olub. Birinci seçim mərhələsi tələbələrin onlayn rejimdə təqdim etdikləri ərizələrin və sənədlərin dəyərləndirilməsindən ibarət olub. İkinci mərhələdə 759 tələbə məntiq və ingilis dilindən ibarət xüsusi hazırlanmış test tapşırıqlarında biliklərini sınayıb. Tapşırıqları uğurla yerinə yetirən 66 tələbə üz-üzə müsahibələrə dəvət alıblar. Tələbələr akademik bilikləri, dünyagörüşü, elmə və təhsilə həvəsi və s. meyarlar əsasında dəyərləndiriliblər. Qaliblər ali təhsillərinin sonunadək "Azercell"dən 200 manat məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsi haqda biliklərini artırmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və təcrübə keçmək imkanını əldə edəcəklər. Təqaüdçülərin 9-u Bakı, 7-si bölgə təhsil müəssisələrinin tələbələridir. Digər 9 tələbə isə 2017-ci il Təhsil Nazirliyinin SABAH qrupları və "Azercell Telekom" MMC arasında imzalanmış memorandum çərçivəsində SABAH tələbələri sırasından seçilib.

Proqramın məqsədi müvəffəqiyyətlə təhsil alan və fərqlənməyi bacaran tələbələrə xüsusi qayğı nümayiş etdirməkdən, yüksək potensiala malik gənclərin peşəkar kimi formalaşmasına dəstək olmaqdan ibarətdir.

***"Azərbaycan"***

# Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu: qanunsuz aksiyaya cəhdlə bağlı mitinq təşkilatçılarına xəbərdarlıq edilib

Xəbər verildiyi kimi, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklər bu il yanvarın 19-da saat 15.00-dan 17.00-dək Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinq keçirib.

Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğundan AZƏRTAC-a daxil olan birgə məlumatda bildirilir ki, mitinqdən sonra iştirakçıların bir qrupu Yasamal rayonunun Şərifzadə küçəsində və Bakı Metropoliteninin "İnşaatçılar" stansiyasının yaxınlığında "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olaraq razılaşdırılmış vaxtdan və ərazidən kənar, habelə yetkinlik yaşına çatmayanlar da cəlb edilməklə qanunsuz küçə yürüşünə cəhd ediblər.

Bu zaman ətrafdakıların diqqətini cəlb etmək və əhali arasında qorxu, vahimə yaratmaq, vətəndaşlara qarşı kobudluq, istirahət hüquqlarının pozulması kimi qanunazidd hərəkətlərə yol verib, ərazidə xidmətdə olan polis əməkdaşlarına qarşı tabesizlik göstəriblər.

Qeyd edilənlərlə əlaqədar 19 yanvar mitinqinin təşkilatçıları yanvarın 22-də Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edilərək ictimai qaydanı pozmaqda və hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin rahatlığını, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini və nəqliyyatın işini pozan qanunsuz hərəkətlərinin gələcəkdə təkrarlanacağı təqdirdə belə qanunsuz aksiyanın təşkilatçıları və iştirakçıları cinayət məsuliyyəti də daxil olmaqla, barələrində qanunvericilikdə nəzərdə tutulmuş ən ciddi tədbirlərin görüləcəyinə dair rəsmi şəkildə xəbərdar ediliblər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Dövlət Universitetinin rektorluğu Üzvi-kimya kafedrasının professoru
**İDRİS MƏCİD OĞLU ƏHMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər Məhkəməsinin sədri Zeyqəm Hüseynov "Unikal" qəzetinin baş redaktoru Asəf Rzayevə dayısı
**SABİR YAQUBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "11 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC-nin direktoru Tağı Tağıyevə qardaşı
**VALEH TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova əzizi
**SƏLBİNAZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Azərnəşr"in rəhbərliyi və kollektivi nəşriyyatın redaktoru
**LƏTİFƏ MƏMMƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apelyasiya Məhkəməsinin kollektivi Qaradağ Rayon Məhkəməsinin sədri Sədrəddin Hacıyevə əzizi
**SABİR HACIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8271
Sifariş 203
Qiyməti 40 qəpik